www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 may 2023-cü il Cümə № 86 (8222) Qiymәti 60 qəpik

**Xəbər**

**Ehtiyatda olan hərbçilərlə bağlı qanun dəyişir - müharibə hazırlığı...**

yazısı səh.14-də

**Gündəm**

**Bu gün nazirlər Moskvada görüşür**



Sülh müqaviləsi Rusiyanın vasitəçiliyi ilə imzalanacaq?

yazısı səh.4-də

**YAP onları partiyadan qovubmuş**

yazısı səh.7-də

**Ukraynaya dəyən zərər hesablanmağa başladı-bəs "Azərbaycanın Xerosiması..."**

yazısı səh.8-də

**Nazir "dərslər sentyabrın 1-də başlasın" deyib, ya yox?**

yazısı səh.10-da

**Şəhidlər Xiyabanını şortiklə ziyarət etmək olarmı?**

yazısı səh.12-də

**Xankəndidə "çevriliş", Laçın postu yaxınlığında təxribat hazırlığı**

yazısı səh.13-də

**ABŞ Azərbaycandakı İran casuslarını müdafiə etdi**

yazısı səh.3-də

**Kılıçdaroğlu nazir postu "paylayır"**

yazısı səh.2-də

**Sertifikasiya imtahanları bu tarixdə olacaq- yaşı 60-dan yuxarı olanlar....**

yazısı səh.10-da

**"Biləsuvar-Quşçuluğ"un rəhbəri işçilərin pulunu verməkdən imtina edir**

yazısı səh.12-də

**İki uşaq quyuya düşüb öldü - Maştağada faciə**

yazısı səh.2-də

# RƏSMİ BAKI QƏRBİN ÇARPAZ TƏZYİQİ ALTINDA

Azərbaycana insan haqları üzərindən basqı yaradılmaqdadır; bəs bunun səbəbləri nədir və niyə indi?

yazısı səh.6-da



## Avropalı "revizor"lar qovulmaq ərəfəsində - ruslar dərhal "biz gələk!" dedi...

Erməni ekspertlər Aİ-nin yarımhərbi missiyasını Azərbaycana casusluqda ittiham edir; İrəvan Bakını Qərb platformalarında pis vəziyyətdə qoyacağına ümid edirdi, təşkilatdan isə sərt reaksiya var

yazısı səh.4-də



**Ramiz Mehdiyevlə Sinan Oğanı nə bağlayır?**

yazısı səh.3-də



İqor Xovayev

**Rusiyalı vasitəçi Bakıya "səssiz" gəlib-qayıtdı - səbəb**

yazısı səh.9-da



**"GunayBank" müəmması: Mahmud Məmmədovun qalmaqallı müsahibəsi, yoxsa...**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023



## Prezident CAR-ın Milli Assambleya sədrini qəbul edib

**Prezident İlham Əliyev mayın 18-də Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakulanı qəbul edib. Dövlət başçısı Nosivive Mapisa-Nqakulanın rəhbərlik etdiyi nümayəndə heyətinə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi və bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.**

Azərbaycan Prezidenti ilə görüşməkdən və 100 illiklə bağlı keçirilən tədbirdə iştirak etməkdən şərəf hissi duyduqlarını bildirən Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı ikitərəfli əlaqələrin genişlənməsinin vacibliyi vurğulandı, əməkdaşlıq üçün yaxşı potensialın olduğu qeyd edildi, kənd təsərrüfatı, enerji, turizm, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə Azərbaycan və Cənubi Afrika Respublikasının beynəlxalq təşkilatlar, həmçinin Qoşulmama Hərəkatında uğurlu əməkdaşlığı qeyd edildi.

## Ukraynada təhsil alan azərbaycanlı tələbələrə müraciət

**Ukrayna universitetlərində təhsil alan tələbələrin diplomlarının tanınması ilə bağlı daha çox problem yaranır. Bunu jurnalistlərə açıqlamasında Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Ülkər Səttarova deyib.**

Onun sözlərinə görə, əsasən vətəndaşların problemi sərhədlə bağlı olur: "Vətəndaşlarımız təhsil müddətində orada az olurlar. Ukrayna tərəfi ilə görüşəndə biz bu problemi onların diqqətinə çatdırmışıq və onların xahişi ilə daha çox problem yaşadığımız universitetlərin siyahısını təqdim etmişik".

"Bir daha vətəndaşlara müraciət edirəm ki, təhsil müddətində həmin ölkədə olsunlar. Universitetin akkreditasiyadan keçib-keçmədiyinə diqqət etsinlər. Hazırda bildiyiniz kimi, Ukraynadakı vəziyyətlə əlaqədar orada təhsil almaq çox risklidir", - Ülkər Səttarova vurğulayıb.



## Gəncədə ana xəstə övladı üçün yığdığı 10 min manatı qumarda uduzdu

**31 yaşlı Gəncə sakini Şəfiqə Əhmədova xəstə övladı üçün yığdığı 10 min manat əməliyyat xərcini onlayn oyunda uduzub. Bu barədə "Xəzər xəbər" məlumat yayıb.**

"Birinci dəfə beş oyun təqdim etdilər. Ondan 12 manat 70 qəpik qazandım. Sonda isə səkkiz oyun təqdim etdilər. Bu səkkiz oyuna da 5000 manat pul qoyduq. 15 000 manat qazandım. 12 manat 70 qəpik köçürüldü, amma 15 000 manat köçürülmədi. Pulumuz getdi. Bu pul da uşağın əməliyyat pulu idi".

Ş.Əhmədovanın 10 000 manatı geri almaq üçün cəhdləri boşa çıxıb.

DİN-in Mətbuat Xidmətinin əməkdaşı Eşqin Qasımov bildirib ki, vətəndaşın müraciəti ilə bağlı müvafiq araşdırmalar aparılır: "Hazırda pulun ölkə daxilində və ya ölkə xaricində olan şəxslər tərəfindən köçürülməsi ilə bağlı müvafiq sorğular göndərilib. Araşdırmaların nəticəsindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək".

# İki uşaq quyuya düşüb öldü - Maştağada faciə



**Bakının Sabunçu rayonu, Maştağa qəsəbəsində iki uşağın ölümü ilə nəticələnən bədbəxt hadisənin detalları məlum olub. "Qafqazinfo" xəbər verir ki, hadisə qəsəbənin Xanlar massivi kimi tanınan ərazisində - küçənin kənarındakı istifadəsiz quyuda baş verib.**

Belə ki, qonşuluqda yaşayan 2013-cü il təvəllüdlü uşaqlar yolda oynayarkən istifadəsiz qalmış və hazırda çirkab suları ilə dolu olan quyuya düşüblər. Yaxınları onları axtararkən hər iki uşağın quyuda olmasını öyrəniblər. Əvvəlcə uşaqların ailə üzvləri və qonşular öz imkanları ilə onların meyitini quyudan çıxarmağa çalışıblar və bir neçə saat ərzində buna cəhd ediblər.

Lakin daha sonra meyitləri çıxarmaq mümkün olmadığından FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinə müraciət edilib. Xilasedicilər mayın 18-i səhər saat 5-dək ərazidə çalışaraq 10 yaşlı iki oğlanın meyitini çıxararaq aidiyyəti üzrə təhvil veriblər. Hadisə ilə bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma aparılır.




## Tanınmış aktyorun ölkədən çıxışına niyə qadağa qoyulubmuş?

**Tanınmış aktyor, teleaparıcı, şoumen Tural Əsədov barəsində məhkəməyə müraciət edilib. Bu barədə Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi Bakı Kommersiya Məhkəməsinə müraciət edib. Müraciətə səbəb, aktyora məxsus "Red Socks MMC"nin dövlət büdcəsinə, DSMF və işsizlikdən sığorta ilə bağlı yaranan borclara görədir. Bu səbəblə Bakı Lokal Gəlirlər Baş İdarəsi Bakı Kommersiya Məhkəməsinə müraciət edərək, onun ölkədən çıxmasının müvəqqəti məhdudlaşdırılmasını xahiş edir.**

Məsələ ilə bağlı Lent.az-a danışan Tural Əsədov artıq problemin həll olunduğunu deyib: "Red Socks MMC əvvəllər mənə məxsus olub. Artıq satılıb. İndi belə bir vergi problemi mövcud deyil".

## Hansı ölkələr Azərbaycandan neft alır?

**Dövlət Gömrük Komitəsinin hesabatına görə, Azərbaycan 2023-cü ilin yanvar-aprel aylarında 5,7 milyard dollarlıq xam neft və xam neft məhsulu ixrac edib. Novator.az bildirir ki, ixrac ünvanları statistik dəyər baxımından belə sıralanıb: İtaliya, Hindistan, İspaniya, İsrail, Türkiyə, Çexiya, Almaniya, Yunanıstan, Avstriya, İrlandiya, Rumıniya, Sinqapur, Vyetnam, İndoneziya, Fransa, Portuqaliya, Xorvatiya, Tailand.**

Energetika Nazirliyinin 18 may məlumatında "AzəriLayt" markalı Azərbaycan neftinin barelinin 79,22 dollara satıldığı qeyd olunur.

2023-cü ilin dövlət büdcəsində bir barel neft 50 dollardan götürülüb, "AzəriLayt" yanvara 87,99, fevrala 87,53, marta 85,01, aprelə 81,88, maya 79,04 dollarla başlayıb.

Yanvar-aprel aylarında ölkədə 10,2 milyon ton neft çıxarılıb. Gündəlik xam neft hasilatı yanvarda 533 min barel, fevralda 531 min barel, martda 515 min barel, apreldə 512 barel göstərilib.

Beynəlxalq razılaşma gündəlik hasilat həddini 684 min barel müəyyən edib.

## Kılıçdaroğlu nazir postu "paylayır"



**"Millət ittifaqı" hakimiyyətə gələrsə, Sinan Oğanın nazir vəzifəsinə təyinatı planlaşdırılır. 27-ci çağırış Türkiyə Böyük Millət Məclisinin (TBMM) Cümhuriyyət Xalq Partiyasından olan deputatı Atilla Sertel Modern.az-a açıqlamasında belə deyib. CHP-li deputat iddia edib ki, Sinan Oğan CHP sədri Kamal Kılıçdaroğlunun yanında yer alacaq:**

"Sinan Oğan dəyərli dostumuzdur. Onunla birlikdə Azərbaycanda çox olmuşuq. Atatürkçüdür. Milliyyətçi, xalqını, Türkiyəni düşünən şəxsdir. Sinan Oğan Azərbaycanı sevən insandır. Onun ikinci turda önəmli rol oynayacağını, Kamal bəyin yanında yer alacağını düşünürəm. Nazirlik məsələsində anlaşma ola bilər. Düşünürəm ki, partiya sədrimiz Kamal Kılıçdaroğlunun planında Miqrasiya Nazirliyi yaratmaq və bu nazirliyin rəhbərliyinə Sinan Oğanı təyin etmək var. Çünki suriyalıların öz ölkələrinə qaytarılması üçün belə bir nazirliyin yaradılması vacibdir".

Qeyd edək ki, Türkiyədə prezident seçkilərinin ikinci turu keçiriləcək. İkinci tur mayın 28-də olacaq.

Space

## Sabah "Space TV"nin yayımı müvəqqəti dayandırılır

**Audiovizual Şuranın videoformatda iclası keçirilib. İclasda şuranın apardığı monitorinqlər nəticəsində aşkarlanmış "Media FM" radio kanalının efirində "Reklam haqqında" Qanunun, "Space TV" televiziya kanalının efirində isə "Media haqqında" Qanunun tələblərinin pozulması faktları müzakirə olunub.**

"Space Müstəqil Televiziya və Radio Şirkəti" MMC-nin "Space TV" televiziya redaksiyasının efirində 12 may 2023-cü il tarixində "Gəl, danış" proqramının yayımı zamanı (saat 13.01-də) "Media haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.6-cı maddəsinin tələbinin (əxlaqdankənar leksik (söyüş) məzmunlu söz və ifadələrdən, jestlərdən istifadəyə yol verilməməlidir) pozulması faktı aşkarlanıb.

Şura üzvləri aparılan müzakirələrdən sonra hər iki redaksiyaya qarşı yayımın dayandırılması sanksiyasının tətbiq olunmasına yekdilliklə səs verib. Beləliklə, Azərbaycan Respublikası Audiovizual Şurasının qəbul etdiyi müvafiq qərarlara əsasən "Media FM" radio redaksiyasının proqramlarının yayımı 21 may 2023-cü il tarixdə 23.00-24.00 arası 1 saatlıq, "Space TV" televiziya redaksiyasının proqramlarının yayımı 21 may 2023-cü il tarixdə 08.00-11.00 arası 3 saatlıq dayandırılacaqdır.

## Həftəsonu 50 mindən çox abituriyent imtahan verəcək

**Dövlət İmtahan Mərkəzi tərəfindən mayın 20-də III ixtisas qrupu, mayın 21-də isə II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək. Bu barədə DİM-dən məlumat verilib.**

Bildirilib ki, mayın 21-də III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə də imtahan keçiriləcək.

İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq.

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023

# ABŞ Azərbaycandakı İran casuslarını müdafiə etdi

## Vaşinqtonun "Kərimə" dövləti qurmaq istəyənləri müdafiə etməsinə sərt reaksiyalar; Dövlət Departamentinin "Ümumerməni Xeyriyyə İttifaqı"nın iftiralarına istinad etməsi hesabatın qərəzli olduğunu sübut edir

**Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət Departamenti bugünlərdə dünyada dini azadlıqların vəziyyətinə dair növbəti illik hesabatı dərc edib. "Yeni Müsavat" yada salır ki, hesabatı dövlət katibi Entoni Blinken təqdim edib. Hesabatda Azərbaycan və Ermənistana dair hissələr yer alır. Hər iki hissə mahiyyəti üzrə qeyri-obyektiv olmaqla açıq-aşkar anti-Azərbaycan xarakteri daşıyır. Qeyd edilir ki, Azərbaycanda ötən ilin sonuna olan məlumata görə, 22 nəfər dini inanclarına və ya ibadətlərinə görə həbsdə olub. Yerli hüquq müdafiəçiləri və digər təşkilatlar bildiriblər ki, hökumət "dini fəallara qarşı fiziki zorakılıq tətbiq etməyə, onları müvəqqəti olaraq xarici dünya ilə rabitədən məhrum etməyə, həbs etməyə davam edib və bir çox dini fəalların həbsi, o cümlədən narkotik saxlamaq ittihamı ilə aparılan həbslər siyasi motivli olub", - deyə hesabatda bildirilir.**




İl ərzində Avropa İnsan Hüquqları Məhkəməsi yeddi nəfər barəsində iki məhkəmə qərarında, o cümlədən şəxsi evdə ibadət üçün yığışan Yehova Şahidlərinin həbsi ilə bağlı bir işdə Azərbaycan hökumətinin şəxsi din və ya etiqad azadlığını pozduğunu təsdiq edib. Sentyabrın 16-da məhkəmə İranda təhsil alan şiə imam Sərdar Babayevin ilkin həbsini 2023-cü ilin martına qədər uzadıb. O, dövlətə xəyanətdə ittiham olunub. Hesabatda həmçinin xatırladılır ki, Azərbaycan hakimiyyəti "hökumətin ekstremist qrup kimi səciyyələndirdiyi və İrandan maliyyə yardımı almaqda ittiham etdiyi qeydiyyatdan keçməmiş Müsəlman Birliyi Hərəkatı ilə bağlı şəxslərə qarşı məhkəmə iddiaları qaldırmağa davam edib". Azərbaycanda erməni dini abidələri ilə bağlı əsassız iddialara geniş yer verən Dövlət Departamenti nədənsə Ermənistandan azərbaycanlıların etnik və dini nifrət zəminində tamamilə qovulması, bu ölkədə vaxtilə dövlət tərəfindən qeydiyyatdan keçmiş 300-ə yaxın məscidin və azərbaycanlılara məxsus bütün digər dini və mədəni irsin dağıdılması faktlarını görməzdən gəlir.

Dövlət Departamentinin sözügedən hesabatında Azərbaycanla bağlı iddiaların yeganə mənbəyi kimi ABŞ-ın Kornel Universitetinin, əslində isə "Ümumerməni Xeyriyyə İttifaqı", "Aragats Fondu" kimi ekstremist təşkilatlar tərəfindən maliyyələşdirilən üç radikal millətçi erməni müəllifin (L.Xaçaturyan, H.Qulyan, S.Bokçeriyan) yazdıqları iftiranın göstərilməsi bu hesabatın qərəzli olmasını sübut edir. Bu həm də hesabatı imzalayan Blinkenin Azərbaycanda din pərdəsi altındakı İran təxribatlarını müdafiə etməsi anlamına gəlir. Artıq Vaşinqtondan belə hesabatların olması adi hala çevrilib. Amma Blinken "Azərbaycanın İranla uzun sərhədi var və onu qorumaq lazımdır" bəyanatı verdikdən sonra Tehrana casusluq edənləri ifşa etməyimizə qarşı çıxırsa, hesabata imza atırsa, özü-özünü təkzib edir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** "Yeni Müsavat"a qeyd etdi ki, Bayden administrasiyasının qərəzi xirtdəyə qədərdir. Hüquq müdafiəçisinin sözlərinə görə, ABŞ Dövlət Departamenti ilk dəfə deyil ki, belə qərəzli hesabat yayır: "Bu, anti-Azərbaycan dairələrin hazırladığı materiallar əsasında olan hesabatdır. Təəssüf ki, Vaşinqton obyektiv ola bilmir. Yaxşı olar ki, Blinken Azərbaycana niyə səfir təyin edilmədiyini, eləcə də ABŞ səfirliyinin buradakı nümayəndələrinin Şuşaya səfər etmədiyini izah eləsin. Amerikalı diplomatlar azad edilmiş ərazilərdə müsəlman abidələrinə qarşı işğalçıların hansı vandallığı etdiklərini görə bilərlər. Ondan sonra bizimlə danışmaq olar".

**Ç.Qənizadə vurğuladı ki, Azərbaycan dünyanın ən tolerant ölkələrindən biridir:** "Dini icmaların birgə sülh şəraitində yaşadığı, ibadət etdiyi ölkədir. Bununla bağlı Azərbaycanda dəfələrlə müxtəlif beynəlxalq tədbirlər təşkil edilib. Belə olan halda, ölkəmizdə dini, mədəni abidələrə, irslərə münasibətin adekvat olmadığı iddiasının səslənməsi olduqca qərəzlidir. Bu cür hesabatın hazırlanması qurumun imicinə ciddi mənfi təsir edir. Rəsmi qurum Kornell Universitetinin, əslində isə erməni xeyriyyə ittifaqının və Ararat fondu kimi ekstremist təşkilatın maliyyəsi əsasında əldə olunan informasiyaya istinad edərək Azərbaycanda dini baxışlarına görə insanların həbs olunduğunu bildirən hesabat hazırlayırsa, bu, biabırçılıqdır. Yaxşı olardı ki, onlar yerində monitorinq aparsınlar. İşğal dövründə 67 məsciddən 65-nin ermənilər tərəfindən dağıdılmasına biganə yanaşılır. Buna baxmayaraq, Azərbaycana qarşı qərəzli iddialar səslənir".

**Ç.Qənizadənin sözlərinə görə, millət vəkili Fazil Mustafaya qarşı törədilən terror aktı da göstərdi ki, radikal dindarlardan istifadə etməklə ictimai-siyasi sabitliyi pozmaq, ölkənin ictimai-siyasi quruluşunu dəyişmək niyyəti ilə yönəldilən insanlar var:** "ABŞ və digər ölkələrin İrana sanksiyalar tətbiq etdiyi dövrdə İrandan Azərbaycana gəlib demokratik ölkənin strukturunu dəyişdirmək, vəzifəli şəxslərə qarşı sui-qəsd törətmək şəxslərin həbsini dini inanca görə həbs kimi təqdim etmək və bunu tirajlamaq təəssüf doğurur. Rufulla Axundzadə kimi axtarışda olan və İrana sığınanların buradakı adamlarına təlimatlar verməsi, qarışılıq yaratmaq planları qurması, bu məkrli niyyətlərinin faş edilib həmin şəbəkənin ifşa olunması Dövlət Departamenti tərəfindən alqışlanmaq əvəzinə, belə qərəzli hesabat dərc edilir. Deməli, səbəb bizə təzyiq etməkdir. Bu hesabatların arxasında Azərbaycana qarşı ciddi siyasi təzyiqlərin elementləri görünür. Amma bizi müstəqil siyasətimizdən döndərə bilməz".

**QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, "Vətəndaş" İctimai Birliyinin sədri Günel Səfərovanın sözlərinə görə, hesabatla tanışdır:** "Hesabatın əsl mesajı Qarabağda olan xristian abidələrinin təəssübünü çəkməkdir ki, Azərbaycan dövlətinin bu istiqamətdə fəaliyyətini tənqid edə bilməzlər. Qaldı ki, sekulyar bir ölkədə etiqad azadlığına, bizim qədər tolerant yanaşan az sayda cəmiyyət var. "Etiqad məhbusları" saydıqları insanların hüquqlarını qorumağı qabardanların yumor hissi güclüdür və ya Amerika siyasətində 2001-ci ildən sonra baş verən hadisələri bilmirlər. Bu arada, Azərbaycanda fəaliyyət göstərən fərqli dini icmalar bu hesabata tutarlı bir cavab verə bilər".

**❑ Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# Ramiz Mehdiyevlə Sinan Oğanı nə bağlayır?

## Məlumatlara görə, Oğanın 7 il TİKA-nın Azərbaycan ofisinin başında dayanması Prezident Administrasiyasının sabiq rəhbərinin xahişi ilə olub

**Azərbaycan əsilli siyasətçi, "ATA" İttifaqının namizədi Sinan Oğanın mayın 14-də Türkiyədə keçirilən prezident seçkilərində seçicilərin 5 faizindən çoxunun səsini toplaması onun personasına olan marağı artırıb. Hazırda Sinan Oğan təkcə Türkiyə deyil, həm də xarici ölkə mətbuatında haqqında ən çox yazılan, fəaliyyəti təftiş edilən siyasətçilərdən biridir.**



Yenisabah.az-a bildirir ki, Türkiyədə olduğu qədər Azərbaycanda da Sinan Oğanın şəxsiyyətinə böyük maraq var. Yerli KİV mütəmadi olaraq onunla bağlı yazılar dərc edir, keçmiş fəaliyyətinə işıq tutmağa çalışır. Sinan Oğanın publikanın maraq dairəsinə düşməsi onunla bağlı yeni faktların üzə çıxmasına səbəb olub.

Qeyd edək ki, S.Oğanın həyatının ən məhsuldar illəri Azərbaycanla bağlı olub. O, 1992-2000-ci illərdə Azərbaycanda müxtəlif vəzifələrdə çalışıb. Oğanın Bakıya gəlişi mərhum eks-prezident Əbülfəz Elçibəylə əlaqəli olub. Ə.Elçibəyin 1992-ci il iyun ayının 16-da Müstəqil Azərbaycan Respublikasının ikinci prezidenti seçilməsindən sonra Sinan Oğan Bakıya gəlib. Elçibəy 23 yaşlı Oğana etimad göstərərək, onu Prezident Administrasiyasında işlə təmin edib.

Elçibəy hakimiyyəti qısa sürsə də, Sinan Oğanın Azərbaycandakı karyerası uzun müddət davam edib. O, 1993-2000-ci illərdə TİKA-nın (Türk İşbirliği və Koordinasyon Ajansı) Bakı təmsilçisi olub. Bununla paralel olaraq Azərbaycan Dövlət İqtisad Universitetində çalışıb, sözügedən təhsil ocağında dekan müavini vəzifəsini tutub.

Sinan Oğan Azərbaycanın ictimai-siyasi mühitinə yaxından bələd olsa da, həmişə ehtiyatlı mövqeyi ilə seçilib. O, siyasi çevrələrlə, xüsusilə müxalifət cəbhəsi ilə daim məsafə saxlayıb. Azərbaycanlı dostlarının "Yeni Sabah"a bildirdiyinə görə, Oğan həmişə hakimiyyət nümayəndələri ilə dostluğa can atıb. Hətta siyasi çevrələrdə bir müddət "Ramiz Mehdiyevin adamı" kimi tanınıb. Onun Elçibəy hakimiyyətində təmsil olunmasına rəğmən uzun müddət Bakıda qalması, TİKA-nın Azərbaycan ofisinə rəhbərlik etməsi, bununla yanaşı, ölkənin ən nüfuzlu ali təhsil ocaqlarının birində dekan müavini vəzifəsində çalışması məhz R.Mehdiyevin dəstəyi sayəsində mümkün olub.

Məlumatlara görə, Oğanın 7 il TİKA-nın Azərbaycan ofisinin başında dayanması rəsmi Bakının arzusu ilə gerçəkləşib. Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin bunun üçün dəfələrlə Ankaradakı rəsmi dairələrə ağız açdığı bildirilir.

İddialara görə, S.Oğan Türkiyədə aktiv siyasətlə məşğul olandan və o vaxt Ərdoğan hakimiyyətinə qarşı radikal mövqeyi ilə seçilən MHP-də fəaliyyətə başlayandan sonra Bakı ilə münasibətlərində soyuqluq yaranıb. Azərbaycan və Türkiyə hakimiyyətləri arasında münasibətlər sürətlə yaxşılaşmağa doğru getdiyi üçün Bakı Oğanı görməməzliyə vurub. Buna rəğmən Sinan Oğanın Azərbaycan hakimiyyətində bəzi qüvvələrlə hələ də əlaqələrinin olduğu bildirilir.



# Bu gün nazirlər Moskvada görüşür

## Sülh müqaviləsi Rusiyanın vasitəçiliyi ilə imzalanacaq?

**Mayın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb. Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib. Səfər çərçivəsində mayın-19-da Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub.**

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın sözlərinə görə, mayın 19-da Rusiya XİN başçısının azərbaycanlı və ermənistanlı həmkarları ilə üçtərəfli görüşdən əlavə ikitərəfli görüşləri də baş tutacaq: "Ayrıca olaraq, Azərbaycan və Ermənistan XİN başçılarının sülh müqaviləsi ilə bağlı ikitərəfli danışıqları də keçiriləcək. Xarici siyasət qurumlarının başçıları Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılması perspektivlərinə baxacaqlar. Cənubi Qafqaz regionunda nəqliyyat kommunikasiyalarının açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanması, ictimaiyyət, ekspertlər və parlamentari xətti ilə təmasların qurulması daxil olmaqla, üçtərəfli razılaşmaların həyata keçirilməsinin predmetli müzakirəsi baş tutacaq.

Ayrıca görüşlərdə Rusiya XİN başçısı ilə ikitərəfli münasibətlərə və beynəlxalq gündəmə dair aktual məsələləri müzakirəsi planlaşdırılıb. Ümid edirik ki, qarşıdan gələn təmaslar Bakı və İrəvana mübahisəli məsələləri nizamlamağa, tərəflər arasında etibarı yüksəltməyə, eləcə də Cənubi Qafqazda sabitliyi möhkəmləndirməyə yardım edəcək".

Maraqlıdır, Vaşinqtondan sonra Moskva görüşü nə ilə yadda qalacaq? İki ölkə arasında sülhə hansı tərəf nail olacaq?

**Rusiyalı politoloq, tarix elmləri namizədi, Rusiya Federasiyasının Etnik və beynəlxalq araşdırmalar mərkəzinin elmi direktoru Anton Bredix** yerli nediaya açıqlamasında bildirib ki, regionda sülh yalnız Moskvanın vasitəçiliyi ilə baş tuta bilər: "Rusiya iki ölkə arasında sülh üçün daha çox töhfə verə bilər. Hesab edirəm ki, sülh müqaviləsi Rusiyanın vasitəçiliyi ilə imzalanacaq".

Dağlıq Qarabağ münaqişəsinə rəsmi Moskvanın vasitəçiliyi ilə 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatla son qoyulub. Bundan əlavə, liderlərin digər görüşləri də keçirilib. Amma ötən ilin dekabr ayında Moskva görüşünə Ermənistan tərəfinin qatılmaması Rusiyada müsbət qarşılanmamışdı. Bununla belə, mayın 19-da nəzərdə tutulan Moskva görüşü sülh danışıqlarında növbəti mərhələni təşkil edəcək.

Azərbaycan bölgəmizdə sülhün təmin olunması naminə irəli sürülən bütün təşəbbüsləri müsbət qarşılayır. Məhz bu səbəbdən də, dövlətimiz bu prosesə bağlı təklif edilən görüşlərdə və danışıqlarda iştirak edir. Moskvada keçiriləcək Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşünə də bu kontekstdə yanaşılmalıdır. Dövlətimiz sülhə, sabitliyə xidmət edən bütün təşəbbüsləri təqdir edir. Bu baxımdan, keçiriləcək görüş sülh yolunda irəliləyişə səbəb olacaqsa, Azərbaycan tərəfindən dəstəklənəcək.

❑ "Yeni Müsavat"

# Avropalı "revizor"lar qovulmaq ərəfəsində - ruslar dərhal "biz gələk!" dedi...

## Erməni ekspertlər Aİ-nin yarımhərbi missiyasını Azərbaycana casusluqda ittiham edir; İrəvan Bakını Qərb platformalarında pis vəziyyətdə qoyacağına ümid edirdi, təşkilatdan isə sərt reaksiya var

**Avropa İttifaqının müşahidə missiyasının Ermənistanın Azərbaycanla şərti sərhəd zonasına gəlişini sevinclə qarşılayan ermənilərin son günlər bu missiyadan narazılığı başlayıb.**



"Yeni Müsavat"ın siyasət şöbəsi yazır ki, xüsusən də sərhəddəki son gərginlikdən sonra Ermənistanda avropalı "revizor"ları açıq hədəf alırlar. Bu mövzuda ABŞ-ın "Politico" qəzetinin məlumatları Ermənistanda geniş ajiotaj yaradıb. Nəşr yazıb ki, Brüssel Ermənistanla Azərbaycan sərhədində patrul xidməti ilə bağlı məlumatı Bakıya da ötürür. Bu isə erməniləri ciddi məyus edib. İndi erməni ekspertləri Aİ-nin Ermənistanda yerləşdirilmiş missiyasını Azərbaycana casusluqda ittiham edirlər. Ekspertlər bildirirlər ki, əslində missiyanın əsl məqsədi Rusiyanı qızışdırmaqdır.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Aİ-nin monitorinq missiyası ilə bağlı sualı cavablandırarkən deyib ki, hazırlanan hesabatlar Brüssel tərəfindən rəsmi istifadə üçün nəzərdə tutulub. Bu isə narazılıqları daha da artırıb, hökumətə sərt tənqidlər artıb. Ermənistan rəhbərliyi Avropa İttifaqının mülki missiyasını öz ərazisində yerləşdikdən sonra reallıqları təhrif edərək, Avropa platformalarında Azərbaycana qarşı mənfi mövqe formalaşdırmağa nail olacağını gözləyirdi. Amma onların bu gözləntisi baş tutmadı. Paşinyan hökumətinin tənqidçiləri hesab edir ki, Ermənistanın hazırkı siyasəti də belədir. Nə ölkənin ABŞ-ın hərbi təlimlərində iştirak edib-etməyəcəyi bəllidir, nə də İrəvanın KTMT-nin sərhədlərə yaxın missiya yerləşdirmək təklifinə cavabı. Hakimiyyətin yürütdüyü siyasi xətt təkcə ölkə daxilində deyil, beynəlxalq tərəfdaşlar üçün də anlaşılmazdır. Bütün bu qeyri-müəyyənliklər və ziddiyyətli hərəkətlər və bəyanatlar nəticəsində Ermənistan region üçün ən taleyüklü dövrdə müttəfiqlərini itirir.

**Avropa İttifaqı isə müşahidəçilərə yönəlik tənqidlərə sərt reaksiya verib.** "Avropa İttifaqı müşahidəçiləri hesabatları nə Ermənistana, nə də Azərbaycana təqdim edirlər. Onlar hesabatlarını Brüsselə göndərirlər". Bunu Aİ-nin Ermənistandakı nümayəndəliyinin rəhbəri, səfir Andrea Viktorin son mətbuat konfransında bildirib. "Son qanlı hadisələrə gəlincə, əgər Sotkdan (Zod - E.S.) danışırıqsa, müşahidəçilər orada olmayıblar, lakin sərhədin əhəmiyyətli hissəsində mövcuddurlar. Onların hansısa hadisə baş verən yerdə görünmək arzusu yoxdur. Müşahidəçilər sərhədi izləyir və gördüklərini qeyd edirlər. Amma bu, o demək deyil ki, onlar avtomatik olaraq hansısa hadisənin baş verdiyi bir ərazidə olmalıdırlar", - Viktorin bildirib. **Səfir onu da qeyd edib ki, Ermənistan tərəfi müşahidəçilərin təhlükəsizliyinə cavabdehdir**. "Müşahidəçilərin müəyyən bir nöqtəyə getməkdən imtina etdiyi bir vəziyyət də ola bilər", - səfir vurğulayıb.

Rusiya isə vəziyyəti anında dəyərləndirərək, "Ermənistan öz ərazisində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasının yerləşdirsəydi, bundan udardı" deyə, Rusiya xarici işlər naziri Sergey Lavrovun dilindən eşitdirib. Onun sözlərinə görə, KTMT missiyasının Ermənistanda yerləşdirilməsi ilə İrəvan daha sabit vəziyyət əldə edərdi. Baş diplomat ABŞ-ı ittiham edib. Onun sözlərinə görə, ermənilərə deyirlər ki, rus hərçbilərini və 102-ci bazanı çıxarın, təhlükəsizliyə biz qarant dayanaq. Göründüyü kimi, rəsmi İrəvan strateji qarşıdurmada nə mövqeyini müəyyən edə bilir, nə hiylələri baş tutur. İndi isə avropalı müşahidəçilərdən narazılıq fonunda, KTMT missiyasının göndərilməsi dərhal təklif olunur. Bu, reallaşa bilərmi?

**Bu suala şərh verən politoloq Murad Sadəddinovun "Yeni Müsavat"a bildirdiyinə görə, Ermənistanın avropalı müşahidəçilərdən giley-güzar etməsi bir neçə səbəblə bağlıdır:** "Əvvəla, İrəvan avropalı müşahidəçilərdən gözləntilərini əldə edə bilmədi. Onlar inanırdı ki, avropalılar ermənilərin ürəyindən keçəni edəcəklər və bundan bizə qarşı təzyiq kimi istifadə olunacaq. Amma Brüssel danışıqları da göstərdi ki, Qərb məcburiyyət qarşısında bizim ədalətli mövqeyi dəstəkləyir. Ermənistan indi buna görə Rusiyaya tərəf manevr etmək fikrinə düşüb. Hesab etmirəm ki, avropalı, yaxud KTMT müşahidəçilərinin sərhəddə olması vəziyyəti dəyişə bilər". **Siyasi ekspertin fikrincə, Azərbaycanla Ermənistanın potensialı müqayisə oluna bilməz:** "Ermənilərin manipulyasiyası bizə təsir etməyəcək. Sadəcə, istər KTMT, istərsə Avropa İttifaqı olsun, hər kəs regionda təsir dairəsini gücləndirməyə can atır".

**Analitik Elxan Şahinoğlunun** fikrincə, KTMT missiyası Ermənistanda yerləşsəydi belə, təşkilatın hərbi müşahidəçiləri Avropa İttifaqının müşahidə missiyası kimi təmas xəttindəki toqquşmaların qarşısını ala bilməyəcəkdilər. Onun sözlərinə görə, birincisi, missiyanın tərkibi kiçik olacağından hərbi müşahidəçilər bütün sərhədboyu yerləşə bilməyəcəkdilər. "İkincisi, erməni hərbçiləri missiyanın arxasından mövqelərimizi atəşə tutsaydılar, yenə cavabını alacaqdılar və bu halda Avropa missiyası kimi KTMT missiyasının da faydasız olacağı anlaşılacaqdı. Üçüncüsü, KTMT missiyasının əsasını rusiyalı hərbçilər təşkil edəcəkdilər ki, onlar onsuz da Ermənistandakı hərbi bazada xidmət edirlər, təşkilatda Azərbaycana dost dövlətlərin İrəvanın xeyrinə qərar verəcəkləri şübhə altındadır". **E.Şahinoğlunun zənnincə, Lavrovun KTMT missiyası ilə bağlı sözləri, sadəcə, Paşinyana müxalif olan qüvvələrə ünvanlanıb ki, baş nazirin qətiyyətsizliyindən ona qarşı istifadə etsinlər:** "Nikol KTMT missiyası bir yana qalsın, təşkilatı tərk etmək barədə düşünür. Çünki Paşinyana da aydındır ki, KTMT Ermənistanı qoruya bilməyəcək".

**Siyasi şərhçi Ramiyə Məmmədova** Ermənistanın KTMT-nin missiyasının sərhəddə yerləşməsinə razı olacağını gözləmir. Onun bildirdiyinə görə, bu zaman Qərbdəki tərəfdaşları ondan üz döndərə bilər. Ekspert Rusiyanın tələsik təklif göndərməsini bölgə uğrunda rəqabətin elementi sayır: "Heç də nə sərhəddə gərginliyi azaltmaq niyyəti güdülür, nə Ermənistanı müdafiə etmək. Sadəcə, bölgədə təsir gücünü artırmaq məqsədi var. Faktiki olaraq, sərhəddə döyüşlər olur, amma KTMT üzv ölkəyə dəstək vermir. Əvvəl müharibə Qarabağda idi, indi sərhəddədir, KTMT müdaxilə etmirsə, missiyası yerləşdikdən sonra da etməyəcək. Mənə belə gəlir ki, İrəvanın avropalı müşahidəçilərin sayını artırmaq istəkləri var. Onların şikayətlənməsi hiylədir, daha böyük kontingentin sərhəddə yerləşməsi plandadır. Bu işin başında Fransadır. Paşinyan sərhədləri Qərbə təslim etdirir. Lavrov ona görə dedi ki, amerikalılar ermənilərə pıçıldayır - rusları qovun! Ermənistan bilir ki, sərhəd münaqişəsini Aİ missiyası dayandıra bilməz. Sadəcə, bölgədə Qərbin nüfuz dairəsini genişləndirmək hədəfləri mövcuddur". Təhlilçi avropalı missiya qrupunun Azərbaycana məlumat verdiyini yeni xəbər hesab etmir: "Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar da təsdiqləmişdi ki, Bakıya bu haqda məlumat verilir. Hətta Azərbaycanın işğal altında olan kəndlərinə də onların baş çəkməsi istənilmişdi. Avropalılar bölgədə tərəf saxlaya bilməzlər, o zaman Brüssel danışıqları öz işinə gedəcək. Bundan isə Rusiya yararlanacaq. Mişel bilir ki, Qərb masası dağılsa, Moskvanın əlinə növbəti fürsət düşəcək".

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023

**Mərkəzi Bankın gözlənilmədən "GünayBank" ASC-nin lisenziyasının ləğv olunması barədə qərar verib. "GünayBank" ASC 1992-ci ildə yaradılıb.**

# "GünayBank" müəmması: Mahmud Məmmədovun qalmaqallı müsahibəsi, yoxsa...

## Ekspert bankla bağlı gizlinləri açdı: "Bir neçə ay öncə..."

Bankın sahibləri Mahmud Məmmədov və Yeganə Şirinovadır. Mərkəzi Bank açıqlamasında qeyd edib ki, "GünayBank" ASC-nin ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 0,6%, kredit portfelində 1%, sektorun öhdəliklərində isə cəmi 0,5% təşkil edir. 2023-cü ilin I rübünün sonuna bank üzrə sığortalanmış (kompensasiya olunan) əmanətlər 38,5 mln. manat təşkil edir. Bankın əmanətçilərinin say etibarı ilə 99,9%-nin əmanətləri kompensasiya olunacaq. Bankın fəaliyyət göstərdiyi filialların sayı 10, şöbələrin və valyuta mübadilə məntəqələrinin sayı isə 4 olub.

"GünayBank"ın sahibi Mahmud Məmmədov isə Mərkəzi Bankı qınayıb. O bildirib ki, bankın ehtiyacı olsa da, Mərkəzi Bank "GünayBank"a vəsait ayırmayıb. "Elə banklar vardı ki, 500-600 milyon manat kredit verirdi, bizə isə 1-2 milyon manat kredit verməyi də çox görürdü", - o qeyd edib.

Qeyd edək ki, "GünayBank"ın sahibi bugünlərdə mərhum prezident Heydər Əliyevlə tanışlığı və münasibətləri, eləcə də onun sahibkara göstərdiyi dəstəyi barədə Haqqın.az saytına geniş müsahibə verib.

İxtisasca stomatoloq olan Mahmud Məmmədov 1989-cu ildən kiçik biznesə başlayıb. Deyib ki, vaxtilə ölkədə başlayan milli azadlıq mübarizəsində mitinqlərdə o vaxt hələ yeni yaradılan Xalq Cəbhəsinə ilk yardım edən şəxs olub. Onun sözlərinə görə, hələ 1990-cı ildə Heydər Əliyevi dəstəkləyib və hətta onun barəsində filmin çəkilməsi təşəbbüsü ilə çıxış edib, amma 1990-cı ildə ona qarşı sui-qəsd baş verdiyindən bu təşəbbüs nəticəsiz qalıb. Mahmud Məmmədov 1990-cı ildə Heydər Əliyevin dəvəti ilə Naxçıvana səfəri, ona olan münasibət və dövlət başçısının dəfələrlə dəstəyini xatırlayıb.

Azərbaycanda "GünayBank"ı, sonradan "Günay Sığorta"nı, "Günay" qəzetini və BMTİ televiziyasını təsis edən iş adamı Milli Məclisin keçmiş rəhbəri Rəsul Quliyevlə arasında olan konflikt barədə məlumat verib, haqqında bir neçə dəfə qondarma cinayət işi qaldırıldığını, amma hər dəfə Heydər Əliyev tərəfindən dəstəkləndiyini bildirib. O, akademik Cəlal Əliyevlə münasibətləri barədə də ətraflı danışıb. Onun dəstəyini də yüksək qiymətləndirib. İş adamının müsahibəsində bir sıra mübahisəli məqamlar da var. Məsələn, o deyib ki, H.Əliyev birinci dəfə hakimiyyətə gələndə Bakıda azərbaycanlıların sayı digər millətlərdən az olub. H.Əliyev Bakı Sovetinin o zamankı İcraiyyə Komitəsinin sədrinə tapşırıq verib ki, rayonlardan adam gətirsin, bu nisbət düzəldilsin. O, Cavadov qardaşları ilə uzaq qohumluq əlaqələri olduğunu, Mahir Cavadovla münasibətlərinin pis olduğunu deyib.

Mahmud Məmmədov vaxtilə Azərbaycan Demokratik Sahibkarlar Partiyasının (ADSP) da rəhbəri olub. ADSP 2021-ci ilədək fəaliyyət göstərib və həmin il kollektiv şəkildə Yeni Azərbaycan Partiyasına (YAP) qoşulmaqla bağlı qərar verib. YAP-ın 2021-ci ildə keçirilən qurultayında bu qərar rəsmiləşdirilib.

Bəs görəsən, "GünayBank"ın bağlanmasına siyasi, yoxsa iqtisadi motivlər səbəb olub?

**Bank üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, "GünayBank"ın rəhbəri Mahmud Məmmədov hamıya məlum bir şəxsdir və Azərbaycan dövlətçiliyinə, şəxsən Heydər Əliyevə vaxtilə böyük xidmətləri olub:** "Yəni burada siyasi heç bir problem yoxdur. Bu bankın iqtisadi cəhətdən də heç bir problemi yoxdur. Mən bank sistemində 10 ildən çox çalışmışam, vəkil kimi də hər gün məhkəmələrdəyəm. Yəni bu günə kimi məhkəmələrdə "GünayBank"la bağlı məhkəmə işi görməmişəm. Bu bankın nə müştərisi, nə əmanətçisi onu məhkəməyə verib. Burada daha çox problem onunla bağlıdır ki, hazırda Azərbaycanda bank sektorunun inhisarlaşması prosesi gedir. Bir neçə bank digər bank sektorunu ələ alır. Burada heç bank sahiblərindən də söhbət getmir. O banklara yeni şəxslər təyin olunublar, idarə edirlər. Gedib xaricdə guya bir-iki il oxuyub gəliblər. Bir az da ingiliscə danışırlar. Bunları da təyin edib deyiblər ki, heç kimdən rüşvət almayın. Bunlar doğrudan da rüşvət almırlar. Amma bunlara bonus verirlər, bankların qazancının müəyyən faizi bunlarındı. Bunlar qarşılarına məqsəd qoyublar ki, digər xırda bankların da axırına çıxsınlar, onların müştəri bazasını ələ alsınlar, daha çox gəlir əldə etsinlər. Bu da nəticə etibarilə ona hesablanıb ki, Azərbaycanda bank sektorunda heç bir rəqabət olmasın. Bankların bu dəqiqəyə olan statistikasına baxsanız, görərsiniz ki, 70-80 faiz aktivlər 4 bankın əlindədir. Ölkədə 25 bank var, 4-5 bank bütün bank sektorunu ələ alıb. Yəni məqsəd rəqabəti aradan qaldırmaqdır. Bu da niyə pisdir? Ona görə ki, burada bank xidmətlərinin keyfiyyəti dəyişir. Həmin o 4-5 bankın hamısında olmuşam, bəzilərinin müştərisi də olmuşam. Keyfiyyət sıfır. Onlar üçün fərqi yoxdur, deyirlər ki, onsuz da müştərimiz var. Düzdür, onların şərtləri bir qədər yaxşıdır. Çünki pulları çoxdur. Amma bankların çoxu getsə, ancaq onlar qalsa, təbii ki, müştərilər üçün şərtlər ağırlaşacaq. Çünki müştərilər pis-yaxşı 25 bank arasında müəyyən seçim edə bilirdi".


Mahmud Məmmədov

**Ekspert "bankın lisenziyasının ləğv edilməsi prosedurası necə olmalıdır" sualına belə cavab verib:** "Bu məsələ ilə bağlı az öncə məlumat topladım. Sən demə, keçən ilin sentyabr ayından dekabr ayınadək orada yoxlama olub. Bu da adil haldır, Mərkəzi Bank onsuz da bütün bankları vaxtaşırı yoxlayır. Düzdür, böyük bankları çox formal yoxlayır. Amma belə bankları əməlli-başlı yoxlayırlar. Qanunvericiliyə görə yoxlama bitəndən sonra yoxlama aktını dərhal banka təqdim etməlidirlər. İndiyə kimi bunu "GünayBank"a verməyiblər. Yoxlamadan 5-6 ay keçib. O yoxlama artıq aktual da deyil. Bu da məlumdur ki, Mərkəzi Bank şifahi şəkildə banka bildirib ki, kapitalınız azdır, artırmalısınız. Amma "GünayBank" hesab edir ki, onun kapitalı kifayət qədərdir. Aktı versinlər ki, bu kapital hansı meyarla hesablanıb. Bəlkə düz saymayıblar. Yoxlama aktı verməyiblər, detallar bilinmir. Amma "GünayBank" ötən həftə qərar verib ki, səhmdarların ümumi yığıncağını keçirsin, hətta ötən həftə mətbuatda elan da verib. Açıq məlumatdır ki, 5 iyul tarixinə bu görüşü çağırıb və göstərib ki, gündəlikdə bankın kapitalının artırılması məsələsi müzakirə ediləcək. Məhz bundan dərhal sonra da bu həftə Mərkəzi Bank bankı bağlayıb. Əgər bağlayırsansa, bunu xəbərdarlıq etməliydin. Bu faktın özü də göstərir ki, burada məsələ bankın problemləri filan deyil, belə olsaydı, MB vaxt verərdi, gözləyərdi. Bunu etməyiblər, bu qanunaziddir. İkincisi də, Mərkəzi Bank qanuna görə bank nəzarəti səlahiyyətinə malik deyil. Üstəlik, Mərkəzi Bankın İdarə Heyətində 7 üzv olmalıdır. Yetərsay da 4 üzvdür. Hazırda isə cəmi 3 üzv var. Buna görə də onun qərar vermə səlahiyyəti yoxdur. Buradan belə nəticə çıxır ki, "GünayBank" kimi problemi olmayan bank bağlanırsa, sabah istənilən bank da bağlana bilər".




**Ə.Həsənov "GünayBank" bu qərardan şikayət edə, hüquqlarını bərpa edə bilərmi" sualını da cavablandırıb:** "Məhkəməyə verə bilər. Mən də bunu tövsiyə edirəm. Düzdür, məhkəmələrin də vəziyyəti bəllidir. Amma hər bir halda, hər kəs öz pozulmuş haqqını qorumalıdır. Heç olmasa, bunu edənlərə dərs olsun, belə addımlar atmasınlar".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

### İqtisadçı ekspertin "GünayBank"da bu qədər pulu "batdı"

**İqtisadçı ekspert Samir İsmayıl lisenziyası ləğv edilən "GünayBank"da 1950 manat vəsaitinin dondurulduğunu bildirib. "Hüquqi şəxs cari hesabımızda olan 1950 AZN donduruldu. Batdı desək, daha doğru olar...", - o "Facebook" hesabında yazıb.**

Ekspert qeyd edib ki, əvvəlki illərdə də oxşar təcrübə yaşanıb: "Ötən illərdə ləğv olunan (ATA, AG, NBC, Standard, Dəmir, Amrah) banklarda hüquqi şəxslərin 100 milyonlarla AZN vəsaiti batdı. Üstündən 3 il vaxt keçib, Əmanətlərin Sığortalanması Fondu bu pulların adını çəkmir.

Bu necə olur? AMB kommersiya banklarını istənilən an bağlamaq səlahiyyətinə malikdir. Amma hüquqi şəxslərin cari hesabında saxladığı vəsaitə və yerləşdirdiyi əmanətə təminat verilmir. Nağdlaşdırılma şərtləri də sərtləşdirilir və məhdudlaşdırılır".

**İqtisadçı bildirib ki, hüquqi şəxsin hesabında vəsait varsa, bu, hələ həmin hüquqi şəxsin vəsaiti olduğu anlamına gəlmir:** "Həmin vəsaitin çoxsaylı təyinatları var. Əgər hüquqi şəxsin hesabında olan vəsait lisenziyası ləğv olunan bankda batırsa, həmin hüquqi şəxs öz öhdəliklərini 3-cü tərəf qarşısında necə yerinə yetirsin?"

**Samir İsmayıl əlavə edib ki, 2020-ci ildə bağlanan banklarda 5500 AZN vəsaiti qalıb:** "Məktub yazmışıq, onlar cavab olaraq bildiriblər ki, hələ Himayəçilər Şurasının hesabında olan vəsaitlərin verilməsinə baxılmır. Öncə əmanətlər, vergilər və s. ödənilir. Elə şirkət var ki, Standard Bankda 72 mln. vəsaiti qalıb".

Qeyd edək ki, qanuna əsasən Əmanətlərin Sığortalanması Fondu tərəfindən hər bir sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023

**Son bir həftədə Azərbaycana Qərbdən təzyiqin artdığı müşahidə olunmaqdadır. Əvvəl "Freedom House" Azərbaycanı hədəf alan hesabat yayıb. Sənəddə deyilir ki, dünya diqqətini Ukraynaya yönəltdiyi halda, guya "Dağlıq Qarabağda mülki əhali avtoritar mühasirə ilə üz-üzədir və demokratik ölkələrin təcili yardımına ehtiyacı var".**

# Rəsmi Bakı Qərbin çarpaz təzyiqi altında

## Azərbaycana insan haqları üzərindən basqı yaradılmaqdadır; bəs bunun səbəbləri nədir və niyə indi?



Bədnam təşkilatın hesabatında Azərbaycan Prezidenti İlham Əliyevi də hədəf alan fikirlər yer alıb. "Avropa Şurasının Venesiya Komissiyasının rəyi kimi məcburi olmayan siyasi tövsiyələrin Əliyev hökuməti üçün heç bir dəyəri yoxdur. Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını mütəmadi olaraq icra etmir və bu baxılmamış işlərin təxminən 40 faizi münaqişə ilə bağlıdır".

"Freedom Hause" təşkilatından sonra ABŞ Dövlət Departamenti Azərbaycanda din azadlığı ilə bağlı vəziyyəti tənqid edib. Hesabatda Azərbaycan və Ermənistana dair hissələr yer alır. Hər iki hissə mahiyyəti üzrə qeyri-obyektiv olmaqla açıq-aşkar anti-Azərbaycan xarakteri daşıyır. ABŞ-ın hesabatında qeyd edilir ki, Azərbaycanda ötən ilin sonuna olan məlumata görə, 22 nəfər dini inanclarına və ya ibadətlərinə görə həbsdə olub. Yerli hüquq müdafiəçiləri və digər təşkilatlar bildiriblər ki, hökumət "dini fəallara qarşı fiziki zorakılıq tətbiq etməyə, onları müvəqqəti olaraq xarici dünya ilə rabitədən məhrum etməyə, həbs etməyə davam edib və bir çox dini fəalların həbsi, o cümlədən narkotik saxlamaq ittihamı ilə aparılan həbslər siyasi motivli olub", deyə hesabatda bildirilir.

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviç isə "Amerikanın Səsi"nə müsahibəsində Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı narahatlığını ifadə edib. Jurnalistlərə, hüquq müdafiəçilərinə və vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı təzyiq və təqiblərə toxunan komissar bunun qəbuledilməz olduğunu deyib. Daha əvvəl ATƏT-in media azadlığı üzrə nümayəndəsi vəzifəsini tutan Dunya Miyatoviç dəfələrlə Azərbaycanda olub. Miyatoviç o vaxtdan bəri ölkədə söz və media azadlığının vəziyyətində heç bir müsbət dəyişikliyin olmadığını, məhdudlaşdırıcı mühitin davam etdiyini, "Media haqqında" yeni qanunun da daha çox senzura və məhdudiyyətlər tətbiq etdiyini qeyd edib.

Açıq-aşkar görünən budur ki, Azərbaycana insan haqları üzərindən bir basqı yaradılmaqdadır. Bəs bunun səbəbləri nədir və niyə indi?

**Mətbuat Şurası İdarə Heyətinin üzvü, politoloq Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, həmin beynəlxalq təşkilatlar bəzi ölkələrin əlində alətdir:** "Onların kimə xidmət etdikləri aydındır. Məsələn, "Freedom House"un özü və Avropa Şurasına bağlı bir sıra insan hüquqları təsisatlarının necə formalaşması da bunu sübut edir. Bir sıra ölkələr özlərinin birbaşa deyə bilmədiyi fikirləri, təzyiqləri bu cür təşkilatları yaratmaqla onların dili ilə deyirlər. Hansı ölkələrə təzyiq etmək istəyirlərsə, media ilə bağlı özlərinə sərf edən indekslər yaradırlar və media, insan hüquqları kimi məsələləri qabardırlar. Azərbaycanın güclənməsi, Ermənistanın qarşısında haqlı mövqeyini qəbul etdirməyə çalışması ermənipərəst ölkələri və beynəlxalq təşkilatları narahat edir. Ona görə də həmin təşkilatlara Azərbaycanda medianın, insan hüquqlarının durumunun mənfi göstərilməsi, guya Azərbaycanın erməniləri blokadada saxladığının qeyd olunması göstərişi verilib. Bu təşkilatlar da sifarişi anti-Azərbaycan bəyanatları, hesabatları yaymaqla icra edirlər. Azərbaycanda sosial media azaddır, hər kəs fikirlərini azad ifadə edə bilir. İnsan hüquqlarının əsas fundamentlərindən olan söz azadlığı Azərbaycanda təmin edilib. Qəzetlər, saytlar kifayət qədər çoxdur və fəaliyyət göstərirlər. Onlayn media inkişaf edib. Azərbaycan dövləti mediaya dəstək verir.

Azərbaycan müstəqil mediasının və QHT-lərin dəstəklənməsi məqsədilə Avropa təşkilatları, fondları bu il 13 milyon ayırıb. İndi bir sıra beynəlxalq təşkilatların anti-Azərbaycan hesabatları bu məbləğin əsaslandırılması üçündür. Beynəlxalq qrant mafiyası Azərbaycan üçün ayrılmış həmin 13 milyonun bölüşdürülməsi üçün özlərinə əsaslar formalaşdırmaq istəyirlər. Ona görə də Azərbaycanı qeyri-azad ölkə, Azərbaycan mediasını qeyri-azad media kimi göstərirlər. Dünyanın çox az ölkəsində dövlət tərəfindən mediaya bu qədər diqqət ayrılır. Azərbaycanın qəbul etdiyi "Media haqqında" Qanunu mütərəqqi qanun hesab etməmək ya prosesdən xəbərsiz olmaqdır, ya da qərəzlidir. Dünya Miyatoviçə gəlincə, o, indiyə qədər olan ən qərəzli insan haqları komissarıdır. Dünya Miyatoviç insan haqları mövzusunda, istər ATƏT coğrafiyasında, istər Avropa Şurası tarixi coğrafiyasında günün günorta çağı mülki insanların yaşadığı şəhərləri ballistik raketlərlə bombalayan Ermənistana qarşı səsini çıxarmamış insan haqları komissarıdır. Ona görə də bu cür insanın səsləndirdiyi hər hansı fikri ciddi qəbul etmək lazım deyil".

**Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli bildirdi ki, Qərb institutlarının Azərbaycana qarşı münasibəti heç zaman birmənalı, səmimi və obyektiv olmayıb:** "Qərəz, ikili standartlarla yanaşma həmişə özünü büruzə verib. Təkcə 1992-ci ildə ABŞ-da qəbul edilmiş "Azadlığı müdafiə aktına 907-ci düzəliş"i misal göstərmək kifayətdir ki, Qərbin yanaşmasındakı ikili standartlar barədə təsəvvür formalaşsın. Həmin vaxt Azərbaycanın rayonları ard-arda Ermənistan tərəfindən işğal edilirdi. Amma ABŞ və digər Qərb institutları Azərbaycanı ittiham edirdilər ki, guya Ermənistanı blokadada saxlayır. 907-ci düzəlişin mahiyyəti budur. Bu baxımdan, deyə bilərik ki, ABŞ başda olmaqla, Qərb institutlarının Azərbaycana qarşı qeyri-obyektiv, ikili standartlarla yanaşmalarının ən azı 31 illik tarixi vardır: "Təbii ki, bunlar geopolitik oyunlardır. ABŞ, Qərb mərkəzləri belə vasitələrlə təsir göstərib Azərbaycana öz şərtlərini qəbul etdirmək istəyiblər. Amma prosesə kənar müdaxilələr də mövcuddur. Məsələn, "Freedom House" (ABŞ), "Sərhədsiz Reportyorlar" (Fransa) və digər bu kimi təşkilatlar təkcə ərazilərində yerləşdikləri dövlətlərin deyil, həm də fərqli güc mərkəzlərinin sifarişini icra edirlər. Konkret olaraq adını çəkdiyimiz bu iki təşkilatın beynəlxalq "erməni şəbəkəsi" ilə əlaqələri isbata yetirilmiş faktdır. Onlar müxtəlif maraqlar qarşılığında fərqli güc mərkəzlərinin, o cümlədən "erməni şəbəkəsinin" də sifarişlərini icra edirlər. Azərbaycana qarşı qeyri-obyektiv davranışları həm də bu kontekstdədir. Amma bu ənənəvi prosesdə son dövrlərdə fərqlilik görünür. Haqlı olaraq vurğulayırsınız ki, son dövrlərdə onların basqıları daha da intensivləşib. Azərbaycana qarşı Qərbdən təzyiqin artdığı müşahidə olunmaqdadır. Fikrimcə, yuxarıda təsvir etdiyimiz kontekstdə yanaşsaq, indiki aktivlik də "məntiqəuyğun" görünər".

**M.Ələsgərlinin sözlərinə görə, bununla yanaşı, son aktivləşmənin özəl səbəbləri mövcuddur. Bu səbəblər sırasında ikisinin üzərində dayanmaqla ümumi mənzərəyə aydınlıq gətirmək olar:** "2 ay öncə-mart ayında ABŞ-da növbəti Demokratiya sammiti keçirildi. Həmin sammitə nə Türkiyə, nə də Azərbaycan dəvət edildi. Ermənistan isə çağırıldı. Ermənistan Türkiyədən demokratik ölkədirmi? Təbii ki, yox. Bəs nə üçün Ermənistanı dəvət etdilər, amma Türkiyəni yox? Həmin prosesdə daha bir nüans diqqət çəkdi. Macarıstan və Polşa demokratiya barometri adlandırılan beynəlxalq reytinq cədvəllərində eyni sırada dayanırlar. Amma Polşadan fərqli olaraq, Macarıstan da Baydenin Demokratiya sammitinə dəvət edilmədi. Macarıstanı da ayırıb kənarda saxladılar. Türkiyə, Azərbaycan və Macarıstanı eyni xəttə birləşdirən məqam Türk Dövlətlər Təşkilatıdır. Hər 3 dövlət TDT-nin üzvləridir. Bayden komandasının TDT-yə, Türkiyəyə və ümumilikdə Türk dünyasına münasibəti bəllidir. Onlar Türkiyənin və ümumilikdə TDT-nin güclənməsini, müstəqil siyasət yürütməsini istəmirlər. Bizim ölkələrimizi ələbaxan, sözəbaxan, buyruq qulu olan dövlətlər kimi görmək istəyirlər. Onlar fikirləşirdilər ki, Türkiyədəki seçkilərdə Kılıçdaroğlunun qələbəsini təmin etməklə, öz arzularını gerçəkləşdirəcəklər. Amma əksi baş verdi. ATƏT-in İnsan Haqları və Demokratik Təsisatlar Bürosunun Türkiyədə keçirilən son seçkilərə verdiyi qiymət də bu kontekstdədir. Türkiyədə keçirilən son seçkilərdə Ərdoğan komandasının qalib çıxması Qərbdə məyusluq və hiddət yaradıb. Onlar hər şeyi fərqli formada planlaşdırmışdılar. Cümhur İttifaqı və ümumilikdə Türk Dövlətlər Təşkilatı bu seçkidə qalib çıxmaqla, ABŞ-ın planlarını uzun müddətə pozdular.

Məsələ ondadır ki, təkcə Türkiyədəki seçkilərdə deyil, Qərb beyin mərkəzləri son illərdə bütün planlarında uduzurlar. 1992-ci ildən başlayaraq Azərbaycanı Ermənistan qarşısında məğlub duruma salmaq istədilər. Amma əksi baş verdi. Azərbaycan 2020-ci ildə Qarabağı işğaldan azad etməklə, Qərbin Ermənistan üzərində qurduğu bütün planları alt-üst etdi. Həmçinin Türkiyədə seçkilərin nəticələrini dəyişmək istədilər. Əksi baş verdi. Türk Dövlətlər Təşkilatı, Azərbaycan-Türkiyə ittifaqı regionun taleyini dəyişir. Burada digər güc mərkəzlərinin imkanlarını heçə endirir. Bu baxımdan, Qərb institutları çaşqın düşüblər. Nə planlaşdırırlarsa, əksi baş verir. Azərbaycana və Türkiyəyə qarşı qıcıqlanmaları, aqressivləşmələri bununla bağlıdır".

**❑ Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

**Mayın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib.**

# YAP onları partiyadan qovubmuş

## Hakim partiyadan xaric edilənlər arasında cinayət məsuliyyətinə cəlb olunanlar var




YAP-dan verilən xəbərə görə, YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. İclasın müzakirəsinə YAP Hacıqabul rayon təşkilatının sədri Elnur Mehman oğlu Əmiraslanovun vəzifəsindən azad edilməsi, YAP Gəncə şəhər təşkilatına və YAP Hacıqabul rayon təşkilatına sədr təyin olunması, Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı partiyanın rayon (şəhər) təşkilatlarının təqdimatlarına baxılması və cari məsələlər çıxarılıb.

İclasda ilk olaraq YAP Hacıqabul rayon təşkilatının sədri Elnur Mehman oğlu Əmiraslanovun səhhəti ilə bağlı vəzifəsindən azad edilməsi barədə ərizəsinə baxılıb və müvafiq qərar qəbul olunub.

Sonra YAP Gəncə şəhər təşkilatının sədri vəzifəsinə partiyanın İdarə Heyətinin üzvü Bayram Mirazim oğlu Aslanovun və YAP Hacıqabul rayon təşkilatının sədri vəzifəsinə İsmayıl Hüseyn oğlu İbrahimovun təyin olunması məsələsinə baxılıb. YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Pərvin Kərimzadə, Amin İsmayılov, Asif Əsgərli, Tofiq Cahangirov və Elmar Qasımov çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədiklərini bildirib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra Bayram Mirazim oğlu Aslanovun YAP Gəncə şəhər təşkilatının sədri, İsmayıl Hüseyn oğlu İbrahimovun isə partiyanın Hacıqabul rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub. Bayram Aslanov və İsmayıl İbrahimov çıxış edərək təşəkkürlərini bildirib və göstərilən etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

İdarə Heyətinin iclasında Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına da baxılıb.

YAP İdarə Heyətinin üzvləri Bahar Muradova və Elmar Qasımov çıxış edərək məsələyə münasibət bildiriblər. 15 nəfərin partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə YAP sıralarından xaric olunmasına dair qərar qəbul olunub. Cari məsələlərlə bağlı müzakirələr zamanı isə YAP İdarə Heyətinin üzvləri Musa Quliyev, Tahir Mirkişili, Kamal Cəfərov və Elmar Qasımov çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

**YAP İdarə Heyətinin üzvü Musa Quliyev** "Yeni Müsavat"a bildirdi ki, partiyadan xaric edilənlər arasında cinayət məsuliyyətinə cəlb olunanlar var. O, qəsdən cinayət törətmiş şəxslərin partiya üzvü ola bilməyəcəyini qeyd etdi: "Partiyanın nüfuzuna xələl gətirə biləcək başqa səbəblər də var: başqa partiyanın üzvü olub, bunu gizlədənlər bilər, üzvlük haqlarının verilməsindən yayınma halları ola bilər, partiya bileti alsa da, uzun müddət partiya ilə əlaqə saxlamayan, tədbirlərdə iştirak etməyən, çağırışlara qoşulmayan şəxslər ola bilər və s. Bu kimi hallarda partiya bu şəxslərlə yollarını ayırır. Əvvəlki qaydalar buna icazə verirdi, lakin YAP-ın yeni nizamnaməsi buna imkan vermir. Bu kimi səbəblərə görə 15 nəfər partiya sıralarından xaric edilib. Onların arasında ictimaiyyət tərəfindən tanınan şəxslər yoxdur. YAP-ın nüfuzlu üzvləri başa düşürlər ki, partiyanın nüfuzunu qorumaq lazımdır. YAP-ın 700 mindən çox üzvü var. Audit yoxlamaları, uçot dəqiqləşdirilməsi zamanı partiyadan xaricedilmə halları ola bilər".

**M.Quliyev qeyd etdi ki, adların açıqlanmaması şəxsi istəklə bağlıdır:** "Əgər partiyadan xaric edilmiş şəxslər istəsələr, özləri məlumat verə bilərlər. Hesab edirəm ki, adların cəmiyyətə açıqlanması partiya etikası qaydasına uyğun deyil".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# UNESCO Qərbi Azərbaycan İcmasına niyə cavab vermir?

**Qərbi Azərbaycandakı tarixi-mədəni irsimiz uzun illərdir ki, ermənilər tərəfindən dağıdılır, məhv edilir, memarlıq quruluşu dəyişdirilir, abidələrimizlə yanaşı toponimlərimiz də soyqırıma məruz qoyulur.**

Bu gün Ermənistan adlanan tarixi Azərbaycan ərazisində mədəni irsimizin soyqırıma məruz qalması faktı sanki dünya birliyini, aidiyyəti qurumları narahat etmir. Azərbaycan tərəfin saysız müraciətlərinə, təqdim etdikləri faktlara əhəmiyyət vermək istəmirlər.

Qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi və geri qayıdışını təmin etmək məqsədilə yaradılan Qərbi Azərbaycan İcması artıq beynəlxalq arenaya çıxmaqda və qərbi azərbaycanlıların harayını dünyaya çatdırmaqdadır. Qərbi Azərbaycandakı mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktına UNESCO-nun diqqətini cəlb etmək əsas məqsədlərdən biridir. Bu ilin mart ayında Qərbi Azərbaycan İcması UNESCO-nun Baş direktoru Odri Azuleyə məktub göndərib. Müraciəti icmanın rəhbər heyəti, Qərbi Azərbaycandan olan ziyalılar, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar imzalayıb. "Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından dərindən narahat olaraq və Azərbaycan ictimaiyyətinin UNESCO-ya əvvəlki müraciətlərini təkrarlayaraq, Ermənistandakı azərbaycanlı mədəni irsinin vəziyyətinin monitorinqi üçün faktaraşdırıcı missiya göndərməyinizi bir daha xahiş edirik", - deyə müraciətdə bildirilirdi.

İcmanın müraciətindən bir neçə ay keçib. Maraqlıdır, UNESCO Qərbi Azərbaycan İcmasının müraciətinə cavab veribmi?

**Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli** "Bakı-Xəbər"ə açıqlamasında "Təəssüflər olsun ki, icmanın UNESCO-ya ünvanladığı müraciətə heç bir cavab verilməyib" - deyib.

**AMEA-nın Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev** bildirib ki, Azərbaycan 30 il müddətində UNESCO-ya müraciətlər edib, amma bu təşkilat yenə də bizə qərəzli münasibətindən qalmayıb və dövlətimizin tələbinə reksiya verməyib. "UNESCO çoxdan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində abidələrimizlə bağlı monitorinq keçirməli və abidələrin vəziyyəti haqda qərar çıxarmalı idi. Qərbi Azərbaycan İcmasının müraciətlərinə UNESCO-nun cavab verməməsi bizi narahat edir. UNESCO nə qədər özünü tərəfsiz kimi qələmə vermək istəsə də alınmır, çünki o da başqa təşkilatlar kimi yalançılıqla məşğul olur. Bu təşkilatlar ermənipərəstdir. Bizim səsimizi eşitmirlər, amma ermənilərin hər nazını çəkirlər. Ona görə də ermənilərə rəğbəti olan böyük dövlətlər və təşkilatlar Azərbaycanın tələbi ilə UNESCO-nun Ermənistana missiya göndərməsinə imkan verməyəcək. Qərbi Azərbaycan İcması çox haqlı olaraq bu təşkilata müraciət edib, haqq-ədalət yerini tutmalıdır. Ermənistan öz əməllərinə görə cavab verməlidir", - deyə Q.Hacıyev bildirdi.

# Amerikadan Salayev və Saakavşili açıqlaması

## Biri Bakıda, biri Tiflisdə həbsdədir



**Dövlət Departamenti Azərbaycanda qanunsuz həbsinə etiraz əlaməti olaraq yüz gündür aclıq edən müxalif fəal Əlizamin Salayevin işini "diqqətlə izləməyə davam edəcəyini" bəyan edib. Xəbəri "Turan"ın Vaşinqtondakı müxbiri verib.**

Xalq Cəbhəsi Partiyasının üzvü olan Salayev fevralda xuliqanlığa görə həbs edilib. O, bu iddianı qətiyyətlə təkzib edir və qeyd-şərtsiz azadlığa buraxılmasını tələb edir.

"Bizim Əlizamin Salayevin aclıq elan etdiyindən xəbərimiz var və onun işini diqqətlə izləməyə davam edəcəyik", - deyə Dövlət Departamentinin rəsmi nümayəndəsinin müavini Vedant Patel "Turan"ın bu işlə bağlı sualına cavabda bildirib. "Biz əvvəlki kimi, insan hüquqlarına və əsas azadlıqlarına hörmətin təşviqinə sadiqik və hakimiyyəti söhbət insan hüquqlarından getdiyi zaman Azərbaycanı öz konstitusiyasına və beynəlxalq sazişlərə uyğun addımlar atmağa çağırırıq".

AXCP Salyan şöbəsinin sədri olan Zamin Salayev fevralın 7-si Bakıda tutulub, silah tətbiq etməklə xuliqanlıqda təqsirli bilinir. İttihama görə, cəbhəçi həmin gün paytaxt sakini Natiq Süleymanova bıçaqla xəsarət yetirib. İstintaqı Qaradağ Rayon Polis İdarəsi aparıb. Cəbhəçi Qaradağ Rayon Məhkəməsində mühakimə olunur.

Zamin Salayev ittihamı qəbul etmir, tutulduğu gündən aclıq aksiyası keçirir. Mayın 11-də o, Bakı İstintaq Təcridxanasından Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülüb.

Mayın 17-də Zamin Salayevin işi üzrə məhkəmə prosesində o, huşunu itirib. Qaradağ Rayon Məhkəməsində iclas dayandırılıb və təcili yardım briqadası çağırılıb. Həkimlər Salayevi məhkəmə zalında müayinə etdikdən və ona iynə vurduqdan sonra iclas davam edib.

Prosesdə iki şahid - hadisə yerinin yaxınlığında olan taksi sürücülərinin ifadələri dinlənilib. Ancaq onlar deyiblər ki, hadisə yerində Salayevi görməyiblər.

Digər şahidlər iki polis əməkdaşı və iki narkomandır. Zərərçəkən özü prosesdə etiraf edib ki, narkomaniyadan müalicə olunub və əvvəllər mühakimə edilib. O bildirib ki, Salayev onu bıçaqla vurub. Lakin ekspertiza rəy verib ki, ona "dərəcəsini müəyyən etmək mümkün olmayan xəsarət yetirilib".

Ekspertizanın məlumatına görə, istintaqa maddi sübut kimi təqdim edilən bıçaqda Salayevin sol əlinin şəhadət barmağının izləri aşkar edilib. Amma vəkil Fəxrəddin Mehdiyev deyib ki, bıçağı bir barmaqla tutmaq mümkün deyil. Növbəti iclas mayın 22-nə təyin edilib.("Turan")

Zamin Salayev fevralın 7-də saxlanılıb, ertəsi gün Qaradağ Rayon Məhkəməsi onu həbs edib. Ona qarşı Cinayət Məcəlləsinin 221.3 - cü maddəsilə (xuliqanlıq-silah və ya silah kimi istifadə olunan əşyaların tətbiqilə zərərçəkmişə qarşı güc tətbiqi) cinayət işi açılıb. İttiham sübut olunarsa, Salayevi 5 ilədək həbs təhlükəsi gözləyir.

Zamin Salayev 2020-ci il aprelin 20-dən 2022-ci il yanvarın 19-dək ağır cinayətdə ittiham etməklə böhtan və təhqir ittihamı ilə həbsdə yatıb.

Qeyd edək ki, ABŞ Gürcüstan hakimiyyətini keçmiş prezident Mixail Saakaşvilinin hüquqlarının müdafiəsini təmin etməyə və ona "ehtiyacı olan lazımi tibbi yardımı göstərməyə" də çağırıb. "Biz bu haqda məlumatları diqqətlə izləyirik", - deyə mətbuat katibinin müavini Vedant Patel brifinqdə "Turan"ın müxbirinə bildirib.

Tiflisdə il yarımdan çoxdur həbsdə olan Saakaşvili ağır vəziyyətdədir və onun vəziyyəti getdikcə pisləşir.

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023



# Arxa partaya göndərilən deputat

**Zamin HACI**
zaminhaci@gmail.com

**Britaniyanın Azərbaycanda bir səfiri var, çox yaxşı adamdır. Ölkəmizin mənafeləri baxımından bunu yazıram. Çünki o səfir həmişə çalışır Azərbaycan üçün nəsə işlər görsün. Gah Şuşada tədbirə qatılır, gah Tərtərdə mina partlayışını pisləyir. (Şuşaya qabaqkı ingilis səfir getmişdi, deyəsən, o qədər dəqiq bilmirəm, ancaq böyük fərqi yoxdur). Hətta ana dilimizi də öyrənib, Müsyö Jordan kimi arabir danışır, ürəyimizi açır. Belə adamlar hər cür hörmətə layiqdir, çünki baxırsan elə vətəndaşımız var Bakıda doğulub, 60 ildir burada yaşayır, ancaq saatı da adamdan urusca soruşur, Azərbaycan dilinə moltanı ləhcəsi kimi yanaşır.**

Britaniyanın özü də 44 günlük savaş zamanı örtülü ya açıq formada bizə dəstək oldu, yanılmıramsa, BMT TŞ-də əleyhimizə qərar qayırmağa maneçilik törədiblər.

Uzun sözün qısası, bir dost ölkə tapmışıq, özü də cupbulu dost deyil, dünya imperiyasıdır, yeri gələndə ABŞ-a qədər sözünü keçirdən dövlətdir, indi bununla münasibətimizi korlamaq istəyənlər var. Səbəb də nə olsa yaxşıdır? Hansısa cinsi azlıqlara aid bayrağın səfirliyin qabağında asılması. Həmin gün dünyada LGBT hüquqlarını qoruma günüymüş, Britaniya səfirliyi də həmrəylik üçün təşkilatın rəngbərəng bayrağını binanın qabağından asıb. Pah. Dəhşət iş olub. İndi ura-patriotlarımız partlamaya düşüb, səfiri asıb-kəsirlər.

Birincisi, ata sözü var, deyir dostun səfasını çəkən, cəfasına da dözər (baxmayaraq ortada əslində cəfa da yoxdur). İndi bir dost hansısa bayraq asırsa, buna görə hay-küy nəyə lazımdır? İkincisi, insan hüquqlarını "ailə dəyərləri", "milli mentalitet" kimi söz-söhbətlərə qurban verməк olmaz. Qayınana beş manata görə gəlini boğur, bacanaq baldızı baltalayır, balaca uşaqları saqqallı kişilərə ərə verirlər, camaat ekrana baxır ki, görək bu axşam kimin ikinci arvad-uşağı Rusiyətdən peyda olacaq - budur bizim mental dəyərlər? Təbii ki, nə onlar deyil, nə bunlar deyil. Ümumiyyətlə, iki şəxsin arasına - cinsindən asılı olmayaraq girmək həm düşüklükdür, həm əxlaqsızlıqdır. Bu mövzu ilə insanları sıxışdırmaq, öldürmək, intihara sürükləmək olmaz. Britaniya səfirliyinin asdığı bayraq da bu anlamı daşıyır. Yoxsa heç kim rəngli bayraq görəndə cinsini dəyişmir. Yoxsa dəyişir, mən bilmirəm? Nə yazım, vallah... Hər şey olar.

Məsələn, bugünlərdə şok hadisə oldu, heç vətəndaşlarımız buna münasibət bildirmədilər. Vasif Talıbovun oğlu Seymur müəllim Naxçıvan Milli Məclisinə sədr müavini seçilən iclasa gedirmiş, lakin binanın qabağında toplaşan deputatlar ona salam verməyiblər. Ah, vah... Bu yerdə şairin misrası yada düşür: "Bir salama dəymədi?" Uzun şeirdir, bilənlər bilməyənlərə söyləsin, yerimiz azdır. Ata sözü də var, deyir bağda ərik var idi, salam-əleyk var idi, bağda ərik qurtardı, salam-əleyk qurtardı. İnsafən, Naxçıvanın, xüsusilə Ordubad bölgəsinin yaxşı, iri ərikləri olur.

Hələ bu harasıdır? Dəhşət sonradır: Seymur müəllim iclasa girib, lakin onu lap dal sırada oturdublar. Halbuki Vasif müəllim oranın sədri olanda Seymur müəllim qabaqda oturardu - əlaçı şagirdlər kimi. Belə münasibət olarmı? Nə olsun vəzifə əldən gedib, sıranı niyə pozursunuz? Adam müsavatçı olduğu üçün uşağını məktəbdən qovmalıyıq? (məsəl üçün, bizdə heç vaxt belə şey olmayıb).

Hətta bir gün Seymur müəllimi ümumiyyətlə iclasa buraxmayıb "Qazan xanın tapşırığıdır, sənə Məclisin qabağında qara çadır quracağıq" desələr, təəccüb etmərəm. Sən də deyirsən ailə dəyəri, mentalitet, Dədə Qorqud, nə bilim, Şah Qacar...



# Ukraynaya dəyən zərər hesablanmağa başladı - bəs "Azərbaycanın Xerosiması..."

## Qərb Ermənistanın ölkəmizə vurduğu maddi ziyana görə kompensasiya ödənilməli olduğunu dilinə belə gətirmir

**Fransa Prezidenti Emmanuel Makron Ukraynaya dəymiş ziyanın beynəlxalq reyestrinin yaradıldığını açıqlayıb. Avropa Şurasının Reykyavikdə keçirilən beynəlxalq sammitində Fransa Prezidenti deyib ki, Rusiya hərbçilərinin hərbi müdaxiləsi nəticəsində Ukraynaya dəymiş ziyanı qeydə alınaraq beynəlxalq reyestrə daxil ediləcək. Makron bütün dövlətləri bu reyestrin hazırlanmasında fəal iştirak etməyə çağırıb.**

Beynəlxalq reyestr Hollandiyada fəaliyyət göstərəcək. O, zərərin sübutunu, eləcə də kompensasiya tələblərini qeyd edəcək. Reyestr fiziki və hüquqi şəxslər, habelə Ukrayna hökuməti, o cümlədən regional və yerli hakimiyyət orqanları, dövlət müəssisələri üçün əlçatan olacaq. Ukraynaya dəymiş zərərin hesablanmasına etirazımız yoxdur. Amma necə olur ki, Azərbaycanın torpaqlarını 30 il işğal altında saxlayaraq, dağı-daşı üstündə qoymayan Ermənistandan da bu cür kompensasiya tələb etmək dünya birliyinin, o cümlədən Avropa Şurasının yadına düşmür? Azərbaycan ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı zamanı ölkədə ağır humanitar böhran vəziyyətinin yaranması, çoxsaylı sosial-iqtisadi obyektlərin məhv edilməsi və ölkə iqtisadiyyatına ciddi ziyanların vurulması ilə yanaşı, Azərbaycan xalqının tarixi, maddi mədəniyyət abidələrinə də ağır zərər vurulub.

Dünyada baş verən hərbi münaqişələrdən sonra vurulan ziyanı ödəmək üçün ölkələr qarşısında öhdəlik yaradan bir sıra digər hüquqi aktlar da var. Belə ki, 1966-cı il 16 dekabr tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 1954-cü il 14 may tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 1954-cü il 19 dekabr tarixli Avropa Mədəniyyət Konvensiyası, 1972-ci il 16 noyabr tarixli UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir.

Körfəz müharibəsi zamanı (İraq-Küveyt arasında 1991-ci il yanvarın 17-si - 1991-ci il fevralın 28-i) tərəflərin bir-birinə vurduğu ziyanın ödənilməsi üçün BMT tərəfindən komissiya yaradılıb. Beləliklə, Azərbaycana Ermənistanın vurduğu maddi ziyanın miqyasını və potensial iddiaçıların sayının bir milyonu keçdiyini nəzərə alaraq, hərbi təcavüz nəticəsində yaranan həm əmlak, həm də infrastruktur iddiaları üçün BMT-nin İraq və Küveyt Təzminat Komissiyasına bənzər beynəlxalq komissiya yaradılması zəruridir. İraq və Küveyt Təzminat Komissiyasının iddiası ilə İraq 1990-1991-ci illərdə Küveyt iqtisadiyyatına və vətəndaşlarına vurduğu ziyana görə 50 milyard dollardan çox təzminat ödəyib. BMT və digər beynəlxalq insan hüquqları müdafiə təşkilatları Ermənistanın qarşısında bu öhdəlikləri qoymalı və yerinə yetirilməsinə nəzarət etməlidirlər. Təzminatın göstərilən bütün formaları Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsində öz əksini mütləq tapmalıdır.

Azərbaycan indi yalnız öz maddi imkanları hesabına milyardlarla ölçülən dağıntıları bərpa etmək üçün çalışır. Dünya Ukraynaya vurulan maddi zərər üçün hərəkətə keçdi, bəs Azərbaycan niyə yaddan çıxıb?

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov hər zaman olduğu kimi indi də hökm sürən bir məsələyə toxundu:** "Qərb ona lazım olanda əsassız hərbi müdaxiləni, işğalı və ümumiyyətlə, özünə sərf edən istənilən halı həyasızcasına dəstəkləyir və bunun dəstəklənməsini başqa ölkələrdən də tələb edir. Otuz ilə yaxın Qarabağ bölgəsində ermənilər tərəfindən viran qoyulmuş yaşayış məntəqələrimizdə Azərbaycana vurulan zərər, Azərbaycanın Ümumi Daxili Məhsulundan dəfələrlə çox olsa da, bu gün Qərb, Ermənistanın bizə vurduğu maddi ziyana görə kompensasiya ödənilməli olduğunu dilinə belə gətirmir. Bu səbəbdən, biz də haqlı olaraq Qərbin öz sərhədlərindən kənardakı "demokratiyasına" güvənmirik. Onların sərhədlərindən kənardakı "demokratiya" onların öz maraqlarına xidmət edir".

**Azad Vətən Partiyasının Akif Nağı da eyni cür düşünür. Onun fikrincə, Azərbaycan tərəfi daim təzminat məsələsini gündəmdə saxlamalıdır:** "Ona görə də danışıqlar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması deyil, Ermənistanın işğalçı hərəkətlərinin, hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması müstəvisində getməlidir. Bu müstəvidə də digər məsələlərlə yanaşı təzminat tələbi də qoyulmalıdır. Təəssüf ki, biz buna nail ola bilməmişik. İndi növbəti dəfə ikili standartlarla üzləşirik. Rusiyaya, İraqa bir mövqedən, bizə isə tamam fərqli mövqedən yanaşır, Ermənistanın Azərbaycana qarşı törətdiklərini görməzdən gəlirlər. Burada ikili standartlarla yanaşı, konkret maraq da rol oynayır. Qərb Ukrayna müharibəsi ilə Rusiyanı taqətsiz hala gətirmək istəyir. Bunun üçün təzminat məsələsindən də istifadə etməyə çalışırlar. Biz bu prosesləri diqqətlə izləməli, məqamında məsələ qaldırıb nəticəyə nail olmalıyıq. Bunun üçün İraq və Rusiya nümunələrini beynəlxalq birliyin, uyğun qurumların nəzərinə yorulmadan çatdırmalıyıq. Məncə, faktları toplaya bilsək, nəticəyə ümid etmək olar. Amma bu prosedurları beynəlxalq tələblərə uyğun və məlumatlı hüquqşünasların iştirakı ilə etməliyik".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Rusiyalı vasitəçi Bakıya "səssiz" gəlib-qayıtdı - səbəb

## Budəfəki səfərdə ən diqqət çəkən İqor Xovayevin Azərbaycan Prezidenti tərəfindən qəbul edilməməsi oldu

**Adətən Moskvadan bölgəyə səfər edən rəsmilərin görüşləri geniş müzakirə mövzusuna çevrilir, diqqət mərkəzində olur. Amma bu dəfə bir istisnanı müşahidə etdik: Rusiya xarici işlər nazirinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevin ötən həftə Bakıya səfəri xeyli səssiz keçdi.**



Xarici İşlər Nazirliyinin məlumatında deyilirdi ki, Ceyhun Bayramovla görüş xeyli zamanı Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, sülh sazişi üzrə danışıqlar, eləcə də regionda cari vəziyyət müzakirə mövzusu olub. Məlumatda deyilir ki, C.Bayramov müzakirələr zamanı sülh sazişi üzrə danışıqlarda ölkəsinin mövqeyi və prioritetlərini, eləcə də gələcək gözləntilərini diqqətə çatdırıb. O eyni zamanda Ermənistanın sülh prosesinə və danışıqlara "xələl gətirən təxribatçı addımları" barədə qarşı tərəfə məlumat verib. İqor Xovayev isə regionda sülh və sabitliyin təmin olunmasının olduqca vacib olduğunu və bu istiqamətdə Rusiya tərəfinin hər cür dəstəyə hazır olduğunu bildirib.

İqor Xovayev Bakıya İrəvandan gəlmişdi. O, İrəvanda Nikol Paşinyan və digər yüksək vəzifəli şəxslərlə müzakirələr aparmışdı. Diqqətçəkən budur ki, məhz Rusiya rəsmisi İrəvanda səfərdə olarkən Azərbaycan və Ermənistanın delimitasiya olunmamış sərhədində ağır silahlardan istifadə edilməklə bağlı atışmalar olub. Azərbaycan tərəfdən 2 hərbçi həlak olub, 1 hərbçi yaralanıb.

Əslində mövcud durumda Moskva-İrəvan münasibətləri barədə yüksək fikirlər söyləmək olmaz. Düzdür, Nikol Paşinyan 9 may paradında iştirak edib, geri dönəndən sonra Basarkeçər istiqamətində gərginlik yenidən artdı ki, bunun da arxasında baş nazirin Kremldən aldığı təlimatların dayandığı daha çox vurğulandı. Amma Ermənistanın sürətlə Qərbə doğru can atması Rusiyanı aşkar qıcıqlandırır. Hətta Rusiya xarici işlər naziri Sergey Lavrov "Tsarqrad" telekanalına müsahibəsində bildirib ki, Qərb metodik olaraq Rusiya Federasiyasının postsovet məkanında ən yaxın müttəfiqlərini Moskva ilə əlaqələrinə görə çox narahat vəziyyətə salmağa çalışır. Lavrov ölkəsinin ABŞ-ın Ermənistana "rusları öz ərazisindən qovmaq" və təhlükəsizliyə kömək etmək təklifini açıq təxribat kimi qiymətləndirdiyini söyləyib.Rusiya XİN rəhbəri Ermənistanı açıq tənqid etməsə də, bundan əvvəl İrəvan-Qərb münasibətlərindən narazı qaldığı məlumdur.

getdiyi bir ərəfədə bunun olmağı Ermənistanın terror sifətini göstərir. Əsas məsələ odur ki, sülh danışıqları ilə bağlı ölkəmizin konkret çağırışları var. Amma çox təəssüf ki, Ermənistan bu məsələdə manipulyasiyalarını davam etdirir. Bildiyimiz kimi, ayın əvvəllərində ABŞ-da xarici işlər nazirlərinin uzun danışıqları oldu. Əslində bu danışıqlar tarixi hadisə idi. Çünki ABŞ sülh məsələsində maraqlı olduğunu göstərirdi və bunun üçün günlərini sərf edirdi. Bunun ardınca Brüsseldə 3 tərəfli görüşlər oldu. Lakin həm Vaşinqton, həm də Brüssel görüşləri ərəfəsində Ermənistan davamlı olaraq təxribatlar törətdi. Nəticədə hərbi qulluqçularımız şəhid oldu. Üstəlik, biz bilirik ki, bölgədə gərginliyin qalması Rusiyanın ideoloji siyasətinin bir parçasıdır. Bütün bunları nəzərə alanda Moskva görüşündən böyük uğur gözləməyə dəymir. Amma bəzi mübahisəli məsələlərin aydınlaşdırılmasında belə görüşlər vacibdir".

Ermənistandakı Avropa missiyası, İrəvanın Qərb masalarında tez-tez peyda olması Rusiyanın rahatlığını pozan amillərdir. Lakin belə görünür ki, Rusiya hərbi varlığını Ermənistanda qorumaqdan ötrü "dəyənək və kökə" siyasətinə üstünlük verir.

Budəfəki səfərdə ən diqqət çəkən Xovayevin Prezident İlham Əliyev tərəfindən qəbul edilməməsi oldu. Sonuncu dəfə Prezident İlham Əliyev Xovayevi bu ilin 14 fevralında qəbul edib. Xovayevin İrəvandan Bakıya hansısa təkliflər gətirdiyi haqda fikir söyləmək çətindir. Dövlət başçısının Heydər Əliyevin yubiley tədbirləri ilə bağlı gündəliyinin sıx olduğu da məlumdur. Amma bu fakt diqqət çəkir. Sərhəd təxribatında Rusiyanın barmağı ola biləcəyi haqda bəzi iddialar vardı. Bəs ekspertlər nə düşünür, Xovayevin "səssiz səfəri" Rusiyaya mesajdır, yoxsa...

**Erciyes Universitetinin professoru, politoloq Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, son vaxtlar Qərbin bölgəmizlə bağlı aktivliyi və bunun arxasında duran məqsədlərin Rusiyanın təsir gücünü azaltmağa yönəlik tədbirlər olduğu məlumdur**: "Amerikada, Brüsseldə baş tutan görüşlər və onun davam etdirilməsi ilə bağlı fəaliyyətlər Rusiyanı narahat edir və o, qabaqlayıcı siyasi iradə ortaya qoyacaq. Xovayevin səfəri də əslində Ermənistanı xəbərdar etməkdir. Onun Nikol Paşinyanla görüşməsini və İlham Əliyevlə bir araya gəlməməsini də buna bağlayıram ki, Rusiyanın Ermənistanın apardığı siyasəti bildiyi məcraya yönəltmək niyyəti var. Lavrovun çıxışını xatırlayın: Amerikanın Ermənistandakı hərbi bazası və sərhəd qoşunlarını çıxarmağın müqabilində ona dəstək verəcəyi ilə bağlı mesajı Rusiya üçün "SOS" siqnalıdır". **Q.Çaxmaqlı həsab edir ki, Ermənistan Qərblə Rusiya arasında qalıb və nə edəcəyini bilməyən bir durumdadır:** "İrəvanın sülh sazişinin bağlanması ilə bağlı da başqa seçənəyi yoxdur. Nəzərə almalıyıq ki, Rusiyanın Qafqazda hərbi varlığı bu müqavilədən asılıdır. Münaqişə başa çatarsa, Rusiyanın edəcəyi bir şey qalmır, "sülhməramlı" adı ilə Qarabağa yerləşdirdiyi hərbi kontingenti bölgədən çıxarmaq zorundadır. Bunun ardınca baza və sərhəd qoşunlarının çıxarılması əlavə olunarsa, Qərb istəyinə nail ola bilər. Bunu belə oxumaq lazımdır ki, sərhəddəki təxribatların da müəllifi Rusiyadır. Rusiya Ermənistanla Azərbaycan arasında razılaşmalarda tərəf olmaqdan imtina etməyəcək və Moskvada sülh prosesi ilə bağlı üç ölkənin dövlət başçıları səviyyəsində bir görüşün olacağı da istisna deyil. Rusiyanın hələ təsir imkanları tükənməyib və o, asanlıqla təşəbbüsü əldən verməyəcək".

**Azad Vətən Partiyasının sədri Akif Nağı qeyd etdi ki, Rusiya regionda hərbi iştirakını təmin edərək, "sülhməramlılar" adı altında hərbi kontingentini bölgəyə yerləşdirib**: "Onlar heç vaxt tərəflər arasında sülhün bərqərar olmasını istəməyiblər. Kreml əslində vasitəçi kimi fəaliyyət göstərmir, daha çox regionda öz maraqlarını qorumağa çalışır. ABŞ isə Rusiyanın regiondan çıxarılması istiqamətində səylərini artırıb. Bu, danışıqlarda təşəbbüsün Vaşinqtona, Qərbə keçməsində özünü göstərir. Ona görə də Xovayevin bu səfəri Rusiyanın regionda mövqelərinin bir qədər zəifləməsi ilə bağlıdır. Bakı və İrəvandakı görüşlər bu narahatlığın çatdırılmasına yönəlmişdi. Ermənistan Rusiyanın müdaxilələrindən razıdır, ona görə də Xovayevə elə diqqət göstərildi ki, yüksək səviyyədə qəbul edildi. Azərbaycan isə Rusiyanın proseslərə müdaxiləsində maraqlı deyil, Xovayev kimi nümayəndələrin səfərlərinə isə heç bir əhəmiyyət vermir. Ona görə də yüksək səviyyədə qəbul olunmadı. O, "səssiz" gəlib getmədi, onu biz səssiz-səmirsiz yola saldıq. Bu da bir diplomatik jest idi. Kremldə bunu anlamamış olmayacaqlar".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi Tural İsmayılov isə bildirdi ki, Rusiyanın son dövrlər atdığı addımlar bizi əsla qane etmir**: "Azərbaycan öz ərazilərində sülhməramlıların separatçıları necə dəstəklədiyini gözəl görür. Xovayevin Vaşinqton və Brüssel görüşləri ərəfəsində regiona səfəri səmimi ola bilməz. Necə ola bilər ki, Rusiya noyabrdan bu yana dalana dirənən görüşlərdə fəallıq göstərmirdi? Amma Qərb formatı bərpa olunan kimi, Rusiya yenidən guya fəallıq göstərir. Həm də İqor Xovayev təəssüflər olsun ki, Azərbaycan və Ermənistan arasında normallaşmaya heç bir vəd etmir. Xovayev reallığı yaxşı bilir. Rusiyaya bəlli olan da odur ki, sülhün ən önəmli açarı Xankəndidən separatçı və terrorçuların çıxarılmağından asılıdır. Bunu etməyəcəyi təqdirdə Rusiyaya inam əsla ola bilməz".

**T.İsmayılov son təxribatların təsadüfən baş vermədiyinə əmindir:** "Ermənistan İran silahlarından istifadə edir. Sülh danışıqlarının

Moskva görüşündə hansısa nəticə əldə olunacağına inam azdır. Sözsüz ki, bu, Rusiyanın "prosesdə mən də varam" mesajının rəsmi təzahürüdür. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə mayın 14-də Brüsseldə keçirilən Azərbaycan və Ermənistan liderlərinin görüşündən sonra bildirmişdi ki, liderlər səviyyəsində görüşləri mümkün qədər tez-tez keçirmək barədə razılığa gəldik. "Liderlər növbəti dəfə Brüsseldə iyul ayında görüşəcəklər. Artıq bəyan etdiyimiz kimi, biz yenidən yaxın gələcəkdə Fransa Prezidenti Makron və Almaniya Kansleri Şoltsla Kişineuda keçiriləcək 2-ci "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində görüşəcəyik. Mən həmçinin liderləri oktyabrda Qranadada təşkil ediləcək 3-cü "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində daha bir belə görüşə dəvət etmək niyyətindəyəm" - Ş.Mişel deyib. Qərbin prosesə dinamika verməsi şəraitində Moskva uzaqdan tamaşa edə bilməzdi...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Nazir dərslərin sentyabrın 1-də başlaya biləcəyini deyib, ya yox?

## Ekspertlər belə bir perspektivi müzakirə edir, nazirliyin rəsmisi isə deyir ki, yayılan məlumat yanlışdır

**Elm və təhsil naziri Emin Əmrullayev son brifinqdə tədris ili ilə bağlı yeni təklif irəli sürüb. Nazir ümumilikdə tədris müddətinin azalmasının tərəfdarı olmadığını bildirib. "Etiraf edək ki, uşaqlar indi daha az məktəbə gedir. Misal olaraq, 10 il hər həftəsonu məktəbə getməklə indiki uşaqlardan 2 il artıq tədris almışam", - deyə nazir bildirib.**

Emin Əmrullayevin sözlərinə görə, tədris ili nə qədər uzun olarsa, istirahət günlərini çıxmaqla, uşaqların gələcəyi üçün daha yaxşı addımdır: "İnkişaf etmiş ölkələrdə tətillər yayda yox, qışdadır. Bizdə isə 3 aylıq tətil müddəti var. Təhsil işçisi olaraq bildirim ki, tədris müddəti nə qədər çox olsa, o qədər yaxşı tədris olar. Fikrimcə, məktəblərdə sentyabrın 1-dən tədrisin başlaması daha uyğun olardı. Bu, sadəcə, istəkdir".

Bununla belə, sonradan nazirliyin **ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov** Referans.az-a açıqlama verərək, məlumatın yanlış olduğunu, Emin Əmrullayevun brifinqdə elə bir söz demədiyini bildirib. Onun sözlərinə görə, nazirin dediyi sözü jurnalistlər yanlış başa düşüb: "Yayılan məlumatlar tamamilə əsassızdır. Nazir Emin Əmrullayev keçirdiyi brifinqdə təhsil müddətinin sentyabrın 1-dən başlamasını təklif edirəm deyə bir söz deməyib. Onun dediyini yanlış mənada təqdim ediblər". Cəsarət Valehov "deyilməyən hər hansı bir məsələ üçün məlumat verə bilmərəm", - deyə qeyd edib.

Qeyd edək ki, "Ümumi təhsil müəssisələrində tədris ilinin müddəti"nin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 24 fevral 2020-ci il, 66 nömrəli qərarına əsasən ümumi təhsilin ibtidai, ümumi orta və tam orta təhsil səviyyənləri üzrə dərs məşğələləri hər il sentyabrın 15-də başlayır və növbəti il iyunun 14-də başa çatır.

Bəs Azərbaycanda təhsil sentyabrın 1-dən başlaya bilərmi? Təhsil sistemi buna nə dərəcədə hazırdır?

**Təhsil üzrə ekspert Elçin Əfəndi** Bakupost.az-a bildirib ki, tədris ilinin daha tez başlaması şagirdlərin adaptasiyasına kömək edəcək: "Tədris ilini iki həftə önə çəkməklə daha çox effekt almaq fikri düzgün deyil. Lakin bu təklif uşaqların adaptasiya prosesində yardımçı ola bilər. Hazırda tədris ili sentyabrın 15-də başlasa da, ayın sonuna qədər davamiyyət qaydasında olmur, beziləri istirahətdən qayıtmır".

**Təhsil eksperti Kamran Əsədov isə mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, şagirdlərin təlim yükünün azaldılmasını dərs günlərinin sayının artırılması hesabına deyil, təhsil proqramlarındakı ikinci, üçüncü dərəcəli lazımsız materialların sıxışdırılması yolu ilə həll etmək olar:** "Digər tərəfdən, dərs ilini sentyabrın 15-dən 1-nə çəkməklə zəruri hesab olunan iki həftə bərpa edilə bilər".

**Ekspert qeyd edib ki, dünyanın müxtəlif ölkələrində dərs ilinin başlama və başa çatması tarixləri ənənəvi olaraq iqlimdən və dərs yükündən asılı olmayaraq müxtəlifdir:** "Məsələn, Rusiyada ənənəvi olaraq 1 sentyabr "Bilik günü"dür. Məktəblilərin tətilə yollandığı tarix isə mayın 25-dir. Gürcüstanda dərs ili sentyabrın 10-dan sonra gələn ilk bazar ertəsi günü başlayır. Belçikada, Çexiyada, Macarıstanda, İsraildə, Estoniyada dərs ili sentyabrın 1-i başlayır və müvafiq olaraq iyunun əvvəlinə, ortalarına və axırlarına kimi davam edir. İranda və Türkiyədə dərslər sentyabrda başlayıb, iyun ayında başa çatır və yaxud Yaponiyada məktəblər aprelin 6-da açılır, tədris ilinin yekunu növbəti mart ayına təsadüf edir. Koreyada isə dərslər martda başlayır və dekabra qədər davam edir. Malayziyada məktəblər yanvarda, Çilidə, Kosta-Rikada isə fevralın sonları, yaxud martın əvvəllərində açılır".

**Kamran Əsədov qeyd edib ki, dərslərin sentyabrın 1-dən başlaması daha uğurludur:** "Ümumiyyətlə, heç bir ölkədə dərs ili hər hansı ayın ortasından yox, əvvəlindən başlayır. Bizdə də sovetlər vaxtında dərs ili sentyabrın 1-dən hesablanırdı və bu çox uğurlu seçim idi. Çünki tədris planları, məktəb proqramlarının daha yaxşı mənimsənilməsində dərslərin ayın əvvəli başlaması çox kömək edirdi. Amma biz neçə tədris ilidir ki, sentyabrın 15-dən uşaqlarımızı məktəbə yollayırıq. Lakin bunun ancaq və ancaq mənfi nəticələrini görürük. Belə düşünürəm ki, bu qərar bir qədər tələsik atılmış addım idi. Doğrudur, dünyada tədris ilinin uzun olması bütün ölkələrdə həm də onların inkişaf göstəricisi sayılır. Bu həm də kurikulumun məzmun keyfiyyətinin artırılması, tədris yükünün azaldılması ilə bağlı görülən tədbirlərdən biridir. Avropa Birliyinə aid olan və dünyanın müasir, inkişaf etmiş ölkələrində tədris ili bizim tədris ilindən ən azı 4-6 həftə uzundur. Onlarda ümumtəhsil məktəblərində orta təhsilin müddəti də 12-13 il, hətta 14 il hesablanır. Tədrisin daha uzunmüddətli olması və daha çox təhsil inkişafa yönəlmiş addımlardan biridir. Burada ancaq müsbət cəhətləri görmək mümkündür.

Təcrübə göstərir ki, bizim təqvimdə çoxlu sayda bayram tətilləri və qeyri-iş günləri olduğundan bu, orta məktəblərdə tədris planının tam şəkildə həyata keçirilməsinə mane olur. Mövzuların birləşməsi, yazı işləri və onlar üzərində səhvlərin təhlili işinin aparılmaması, yekun dərslərin keçirilməsi kimi məsələlər şagirdin biliyinin obyektiv qiymətləndirilməsinə təsir edən amillərdəndir".

**Kamran Əsədov onu da vurğulayıb ki, ötən 5-6 ilin nəticələrindən də görünür ki, dərslərin 14 iyuna qədər davam etməsi həm müəllimlərin, həm də şagirdlərin vaxtını alır:** "Yay aylarında şagirdlərin dərs oxumağa bir o qədər də həvəsi olmur. Apardığım sorğuda iştirak edən şagirdlər qeyd edir ki, məktəbdə oxuyarkən tədris ilinin sonuna yaxın yalnız istirahət haqqında fikirləşirlər. İyunun ortalarına kimi uzadılan dərslərin heç bir mənası yoxdur. Çünki şagirdlər dərsdə həvəssiz şəkildə, candərdi otururlar. Bunun isə nə müəllimə, nə də şagirdə faydası ola bilməz.

Hesab edirəm ki, dərs ilinin əvvəlki qaydada olması daha məntiqəuyğun olardı. İyun ayı məktəblilərin yay tətili üçün nəzərdə tutulub. Belə isti havada şagirdlərin dərsə getməsi sağlamlıq cəhətdən də əlavə problemlər yarada bilər. Belə ki, istidə yorğun, halsız uşaqlar bir də məktəbdə əlavə olaraq yüklənirlər. Bu isə onların səhhətinə yaxşı təsir göstərməyə bilər. Mənim fikrimcə, dərs ili əvvəlki qaydada olsa, daha doğru olar. Bu, uşaqlardan əlavə, valideynlər üçün də artıq problemdir. İyunda övladını məktəbə aparıb-gətirmək onlar üçün də çətin və zəhmətlidir. Çünki bu ayda artıq bir çoxları istirahət və tətil planları qurur. Vaxtı 14 gün uzatmaqla nəyəsə nail olmağın mümkün olmadığını hesab edirəm. Bu addımın təhsilin inkişafına faydalı olacağını düşünmürəm. Əksinə, bunun lazımsız bir qayda olduğunu fikirləşirəm. İndiyə kimi dərslərin may ayında bitməsinin hansısa mənfi tərəfini görməmişdik. İndi belə bir qərarın verilməsinin və onun icrasının tamamilə yersiz və vaxt aparan bir şey olduğunu fikirləşirəm. Bunun valideynlər üçün daha çox ziyanı var. Çünki əlavə olaraq iki həftə də məktəb xərclərini ödəmək heç də yaxşı hal deyil. İyun ayı məktəblilərin həvəslə gözlədiyi tətil ayıdır. Havaların bu qədər isti olduğu bir vaxtda heç kim əlavə olaraq iki həftə də dərsə getmək istəməz".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



### Sertifikasiya imtahanları bu tarixdə olacaq- yaşı 60-dan yuxarı olanlar....

**Müəllimlərin sertifikasiya imtahanlarının vaxtı açıqlanıb. Bu barədə Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov məlumat verib.**

Onun sözlərinə görə, sertifikasiya imtahanlarının vaxtı iyunun 20-dən 24-nə qədər olacaq.

"60 yaşı tamam olan müəllimlərin sertifikasiya imtahanlarında iştirakı könüllü xarakter daşıyacaqsa, onlar yalnız istədikləri təqdirdə müəllimlərin işə qəbul imtahanında iştirak edəcəklər. Əgər iştirak etsələr, əmək haqlarında təbii ki, dəyişiklik olacaq. MİQ-də iştirak etməsələr, artım onlara şamil olunmayacaq". Bunu Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov deyib.

Nazirlik əməkdaşı deyib ki, sertifikasiya imtahanlarını keçirməkdə məqsəd təhsilverənlərin peşəkarlığını ölçmək, təlimə ehtiyac olub-olmadığını müəyyənləşdirməkdir. "Hədəfimiz kimisə işdən çıxarmaq deyil. Qanunvericiliyə təklif edilən dəyişiklik qəbul olunarsa, 60 yaş üzəri müəllimlərin sertifikasiyada iştirakı könüllü olacaq. Hazırda məktəblərdə yaşı 60-dan artıq olan 5 mindən çox müəllim işləyir. Təkliflər hələ qəbul edilmədiyindən həmin müəllimlərə də iştirakla bağlı SMS göndəriləcək. Dəyişiklik olsa, məsələyə yenidən baxacağıq", - o qeyd edib.

### Ali təhsil sisteminin dəyişəcəyi anonsu

**"Biz istəsək də, istəməsək də ali təhsil sistemi dəyişməlidir. Bu sahədə ciddi islahatlar aparılmalıdır".**

Bunu elm və təhsil nazirinin müavini İdris İsayev "Ali Təhsildə Keyfiyyət Təminatı və Keyfiyyətin Gücləndirilməsi" mövzusunda Beynəlxalq Forumda çıxışı zamanı deyib. O bildirib ki, ali təhsil sistemində klassik yanaşmalardan uzaqlaşmaq lazımdır: "Ali təhsil müəssisələrimizə çevik qərarların qəbul edilməsi üçün mexanizmlər təklif olunmalıdır. Düşünürəm ki, yaxın zamanlarda bu sahədə islahatlar aparılacaq. Ali təhsil müəssisələrimiz ilk növbədə təhsilin keyfiyyətinin artırılması istiqamətində öz fəaliyyətlərini daha düzgün formada qura biləcəklər".

Yeni Müsavat
N 86 (8222) 19 may 2023

**Xəbər verdiyimiz kimi, mayın 17-də Rusiya və İran prezidentləri Vladimir Putin və İbrahim Rəisi Rəşt-Astara dəmir yolu hissəsinin yaradılması haqqında saziş imzalayıblar. Sənədə əsasən, Moskva və Tehran layihələndirmə, tikinti, eləcə də mal və xidmətlərin çatdırılması birgə maliyyələşdiriləcək.**

# Ermənistan daha bir regional layihədən kənarda qaldı

## Su boğazına çıxan "böyük qardaşları" erməniləri ayaqlarının altına qoyurlar

Sazişi Rusiyada nəqliyyat naziri Vitali Savelyev və İranın yol və şəhərsalma naziri Mehrdad Bəzrpaş imzalayablar. Mərasimdə Rusiya tərəfdən baş nazirin müavini Aleksandr Novak da iştirak edib. Novakın Tehran səfərindən sonra Rusiya Mərkəzi Bankının rəhbəri Elvira Nabiullina gələn həftə İrana səfər edəcək və bu, İran və Rusiya arasında bank əməkdaşlığının genişləndirilməsi üçün mühüm səfərdir.

Rəşt-Astara xəttinin uzunluğu 170 km olacaq. Mərasimdə elan olunub ki, Rəşt-Astara xətti Moskva və Tehranın, Astara (İran şəhəri) - Astara (Azərbaycan şəhəri) xətti isə Moskva, Tehran və Bakının iştirakı ilə tikiləcək. Hazırda Astara ilə Rəşt arasındakı məsafədə yüklər avtomobil nəqliyyatı vasitəsilə çatdırılır ki, bu da sürəti azaldır. Rusiya bu yolla il ərzində 30 milyon ton yük daşımağı planlaşdırır. Bu marşrutdan Hindistan da istifadə etməyə meyillidir. Hazırda Hindistanın Mumbay şəhərindən Rusiyanın Sankt-Peterburq şəhərinə yüklər dəniz və Süveyş kanalı yolu ilə 30-45 günə çatdırılır, Şimal-Cənub xətti işə düşdükdən sonra isə vaxt 15 günə qədər qısalacaq.

Rəşt-Astara dəmiryol xəttinin tikintisi üçün Rusiya İrana dövlətlərarası razılaşma əsasında 1,3 milyard avro kredit ayırıb. Onun sözlərinə görə, layihənin ümumi dəyəri 1,6 milyard avro təşkil edir. Beləliklə, layihədə Rusiyanın payı 85 faizə bərabərdir.

İranın Xəzər sahilindəki limanlarının ölkənin dəmiryol sistemi ilə əlaqəsi yoxdur. Limanlara yaxın olan dəmiryol xətləri birtərəfli, elektriklə təchiz olunmayan və daşımalar üçün yararsız haldadır. Buna görə də dənizlə yüklərin İrana, oradan Hind okeanı sahillərindəki limanlara çatdırılması çox vaxt və xərc tələb edir.

Bu vaxtı azaltmaq üçün Rusiyanın ayırdığı kreditin bir hissəsi İranda 495 kilometr uzunluqda Harmsar-İncə-Burun dəmiryol xəttinin elektrikləşdirilməsinə sərf olunacaq. Bütün işlər yekunlaşandan sonra nəqliyyat dəhlizinin ötürmə gücü illik 30 milyon tona çatacaq.




Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinə qoşulan hər bir ölkənin öz iqtisadi və siyasi maraqlarının olduğu şəksizdir. Layihənin əsas təşəbbüskarı olan Hindistanın məqsədi Avropaya yükdaşımalar üçün Çindən asılı olmayan marşrutun işə salınması, bir növ Çinin "Bir Kəmər-Bir Yol" layihəsinə alternativ yaratmaq, eyni zamanda limanlarla bağlı Pakistana rəqib olmaqdır. Buna görə də 2018-ci ildə Hindistan İranın Hind okeanı sahilindəki Çabahar limanını icarəyə götürüb. İkitərəfli razılaşmaya əsasən Dehli limanın genişləndirilməsi və modernləşdirilməsinə 600 milyon dollar investisiya yatırmalıdır.

Hindistanın bu planları Rusiya üçün də əlverişlidir: Çinlə qüvvələr balansı yaranması baxımından. Qərbin ağır sanksiyaları ilə üzləşən, Avropa bazarlarından qovulan Rusiya tamamilə Çindən asılı vəziyyətə düşmək istəmir. Bu məsələdə onun demək olar ki, bütün ümidləri Hindistanadır. Hazırda Hindistan Rusiya neftinin Çindən sonra ən böyük alıcısıdır. Moskva Qərb bazarlarından ala bilmədiyi, iqtisadiyyatının kəskin ehtiyac duyduğu məhsulların böyük bir qismini Hindistandan tədarük etmək niyyətindədir. Doğrudur, indiyədək bu istiqamətdə göstərilən cəhdlər hələ ki fayda verməyib: Hindistan şirkətləri sanksiyalara görə Rusiyaya mal satmağa həvəs göstərmirlər. Lakin Rusiya tezliklə Hindistandan idxalı artırmaqda israrlı görünür. Bu idxalın reallaşması üçün ən əlverişli dəhliz məhz Şimal-Cənub, xüsusilə də onun Azərbaycan üzərindən keçən dəmiryol və avtomobil yolu seqmentləridir. Belə ki, Rusiyanın Şimal limanları, hətta Xəzər dənizindəki limanları qışda donduğuna görə hərəkət imkanı kəskin məhdudlaşır. Eyni zamanda Xəzərdəki limanların ötürücülük gücü yetərli deyil, onları artırmaq Azərbaycan ərazisindən ötürmələri genişləndirməkdən qat-qat baha başa gələcək. Üstəlik, yuxarıda da qeyd etdik ki, İranın Xəzər sahilindəki limanlarının dəmiryol sistemi ilə əlaqələndirməsi yoxdur. Rusiyadan Qazaxıstan-Türkmənistan üzərindən İrana gedən avtomobil yolunun ötürücülük gücü çox aşağı, yükdaşıma müddəti isə uzundur.

Şimal-Cənub nəqliyyat dəhlizi, əlbəttə, Azərbaycanın da faydasınadır. Birincisi, ölkə tranzitdən gəlir əldə edəcək. İkincisi, nəqliyyat dəhlizi Azərbaycanın bölgədə rolunu daha da artıracaq. Üçüncüsü, Şimal-Cənub dəhlizində iştirakla Azərbaycan Rusiyadan yan keçməklə Asiyadan Avropaya uzanasn Transxəzər nəqliyyat dəhlizinin inkişafına maneələrin yaradılmasını önləmiş olur.

Uzun illərdir regionda və regiondan keçməklə icra olunan bütün beynəlxalq layihələrdən kənarda qalan Ermənistan da Şimal-Cənub nəqliyyat dəhlizinin bir seqmentinin öz ərazisindən keçəcəyinə ümid edir. 2004-cü ildən layihəyə qoşulan Ermənistan daşımaların öz ərazisindən reallaşması üçün ölkənin İran sərhədindən Gürcüstan sərhədinə qədər uzanacaq avtomobil magistralını inşa etməlidir. Ölkə ərazisində dəhlizə uyğun avtomobil magistralının tikintisinə 2009-cu ildən başlanıb, Asiya İnkişaf Bankı ilə ilk kredit sazişi imzalanıb. 13 ildən sonra - 2022-ci ildə Ermənistanın ərazilərin idarəolunması və infrastruktur naziri ötən müddət ərzində yolun cəmi 5-6 faizinin tikildiyini açıqlayıb. Bu, İrəvan-Artaşat(19,6 km) və İrəvan-Aştarak(11,4 km) yollarıdır. Hər iki yol 2016-cı ildən istifadədədir, lakin onların istismarına dair müvafiq rəsmiləşmə işləri aparılmayıb. Çünki işi icra edən İspaniyanın "Korsan Korviam" şirkəti yolda bir sıra tamamlama işlərini həyata keçirməyib. Bu şirkətə Asiya İnkişaf Bankının ayırdığı kreditlərdən 60 milyon dollar ödənilib, lakin layihədə nəzərdə tutulan işlər tam başa çatdırılmayıb. 2019-cu ildə Ermənistan hökuməti şirkətə qarşı Beynəlxalq Arbitrajda iş qaldırıb, hazırda məhkəmə prosesi gedir.

Şimal-Cənub avtomagistralının tikilməyən Artaşat-Sisyan hissəsi 175 km, Sisyan-Kacaran hissəsi 60 km, Kacaran-Aqarak hissəsi 32 km, Gümri-Bavra hissəsi isə 60 km-dir. Ən çox pul tələb edən hissə Sisyan-Kacarandır. Hökumət bu hissənin tikintisi üçün krediti Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankından almaq niyyətindədir. Hər iki bank kredit üçün prinsipial razılıq verib, müvafiq qərarlar alınıb. Ötən ilin fevralında baş nazir Nikol Paşinyan yolun tikintisinə 2022-ci ilin sonu, 2023-cü ilin əvvəllərində başlanacağını elan etmişdi. Lakin hələ də bu, baş verməyib.

Magistralın İran sərhədinə qədər olan Kacaran-Aqarak hissəsinin tikintisinə Avropa İnkişaf Fondu tərəfindən 154 milyon dollar kredit ayrılıb. Lakin layihə xərclərində artım baş verdiyinə görə Ermənistan hökuməti maliyyələşmədəki iştirak payını artırmalı olacaq. Rəsmilərin verdiyi məlumata görə, yolun ən çətin və işi çox olan Sisyan-Aqarak hissəsinin tikintisi 6 ilə ancaq tamamlana bilər. Ermənistan hökumətinin hesablamalarına əsasən, yaxın 1-2 ildə magistralın digər hissələrində də tikintiyə başlaya bilsələr, bütün işləri 8-9 ilə yekunlaşdıra biləcəklər. Ən kobud hesablamalara görə, magistralın tam tikintisi Ermənistan büdcəsinə 3,5 milyard dollara başa gələcək. İrəvanın bu qədər vəsaiti necə təmin edəcəyi isə hələ də müəyyənləşməyib.

Ermənistan üçün Şimal-Cənub dəhlizi düşdüyü nəqliyyat dalanından çıxmaq üçün yeganə imkandır. Buna görə də İrəvan uzun illər boyu Pakistanla strateji əməkdaşlıq etdiyinə görə Hindistanın, milli məsələyə görə İranın Azərbaycanı layihədən kənarda qoyacağına ümid edib. Lakin 2021-ci ildə İran ermənilər üçün sürpriz edərək, dəhliz çərçivəsində Azərbaycanla avtomobil daşımalarını genişləndirmək barədə razılaşma imzalayıb. Hindistan isə heç bir vaxt Azərbaycanın layihədə iştirakına qarşı çıxmayıb. 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsindən sonra Ermənistan Hindistanla münasibətləri dərinləşdirməyə, İranın Azərbaycana qarşı sərgilədiyi qeyri-dost münasibəti daha da kəskinləşdirməyə çalışır. Aprel ayında Hindistan, Ermənistan və İran rəsmilərinin birgə görüşü keçirilib. Əsas müzakirələr Şimal-Cənub dəhlizi üzrə yükdaşımaların bir qisminin Ermənistan ərazisindən aparılması imkanları ətrafında olub. Ermənistan bununla həm də Hindistandan aldığı silahları maneəsiz daşımaq imkanı əldə etməyi hədəfləyir - bir neçə həftə əvvəl məlum oldu ki, Rusiya həmin silahların öz ərazisindən daşınmasına icazə verməyib.

İrəvanın bu beynəlxalq dəhlizdə iştirakını əngəlləyən daha bir səbəb 2020-ci ilin 10 noyabr bəyanatında nəzərdə tutulan kommunikasiyaların açılmasına maneə yaratmasıdır. Ötən ilin oktyabrında **Rusiya baş nazirinin müavini Aleksey Overçuk** bildirib ki, Ermənistan nəqliyyat kommunikasiyalarının açılmasını tezləşdirməsə, Şimal-Cənub dəhlizindən kənarda qalacaq. Onun sözlərinə görə, Zəngəzur dəhlizi üzrə işlərin həyata keçirilməsi - Mehri ərazisindən dəmir və avtomobil yolunun tikintisi Ermənistanın mövqeyindən asılıdır: **"Bu yolun alternativi var: Azərbaycan və İran artıq həmin yolda iki ölkənin nəqliyyat sistemini əlaqələndirəcək körpülərin tikintisinə başlayıblar. Ermənistandan yan keçməklə Türkiyə və Avropa bazarlarına çıxış imkanı yaradan bu yolun İran hissəsi də artıq tikilir və 2024-cü ildə istismara verilməsi gözlənilir".**

Beləliklə, aydın görünür ki, Şimal-Cənub nəqliyyat dəhlizi də Ermənistansız işləməyə başlayacaq. Əlbəttə, əgər ABŞ və Qərbin sanksiyaları Rusiya və İranın planlarını pozmasa. Belə ki, ABŞ-da senator Ted Kruz bəyan edib ki, Rusiya ilə İran arasında hərbi-texniki əməkdaşlığa qarşı yönəlmiş qanun layihəsi hazırlayırlar. Layihədə bu əməkdaşlıqda iştirak edəcək şirkətlərə qarşı sanksiyaların tətbiq nəzərdə tutulur. Söhbət gəmiqayırma, təyyarə istehsalı, hava limanı, tanker və sair tikintisi sahəsində çalışan şirkətlərdən gedir. Bundan əlavə, Qərb Hindistanın Rusiya ilə əməkdaşlığı genişləndirməməsi üçün də addımlar atmağa hazırlaşır. Belə addımlardan biri kimi Avropanın baş komissarı Jozep Borrel Hindistanın Rusiya neftindən emal etdiyi məhsulların alışının dayandırılmasını qeyd edib...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023

# Şəhidlər Xiyabanını şortiklə ziyarət etmək olarmı?

## Ekspertlərə görə, belə məsələlər qanunvericiliklə tənzimlənsə, daha yaxşı olar

**"Ərəb ölkələrindən gələn bəzi turistlər ora şortiklə gəlmişdilər. Mən orada növbətçi polisə yaxınlaşıb, bununla bağlı etirazımı bildirdim. Polis mənə cavab verdi ki, bizə bu barədə hər hansı bir tapşırıq verilməyib və bura şortiklə daxil olmaq qadağandır - deyilən qanun da yoxdur".**

Bu barədə "Yeni Müsavat" qəzetinin redaksiyasına daxil olan müraciətdə yazılıb. Məktubda Şəhidlər Xiyabanında şortiklə gəzən turistlərlə bağlı narahatlıq ifadə olunub: "Bu yaxınlarda rastlaşdığım bir xoşagəlməz hadisə ilə bağlı fikrimi sizlərlə bölüşdürmək istəyirəm. 9 mayda Şəhidlər Xiyabanına ziyarətə getmişdim. Xiyabanda ziyarətçilər arasında vətəndaşlarımızla yanaşı, xarici turistləri də gördüm. Sevindim ki, turistlər bizim xalqın müqəddəs ocağını ziyarət edir və tariximizin bu qanlı səhifəsinin bizlərə yaşatdığı faciəni bizlərlə birlikdə bölüşürlər. Əlbəttə ki, bu yaxşı haldır. Ona görə ki, başımıza gələn bu faciəni gedib öz ölkələrində danışacaqlar. Bununla da həmin turistlər bir növ ölkəmizin tarixini öz ölkələrində yayan təbliğatçılara çevrilirlər. Təəssüf ki, bir xoşagəlməz vəziyyətlə də rastlaşdım. Ərəb ölkələrindən gələn bəzi turistlər ora şortiklə gəlmişdilər. Mən orada növbətçi polisə yaxınlaşıb, bununla bağlı etirazımı bildirdim. Polis mənə cavab verdi ki, "bizə bu barədə hər hansı bir tapşırıq verilməyib və şortiklə daxil olmaq qadağası yoxdur. Ona görə də mən bir polis işçisi kimi turistə heç bir irad tuta bilmərəm, amma bir azərbaycanlı kimi sizin fikrinizlə həmrəyəm", - deyə o mənə cavab verdi.



Təəssüf ki, bu, Milli Məclisin lap yaxınlığında baş verir, deputatlardan isə bununla bağlı heç bir reaksiya yoxdur. Xahiş edirəm bu ciddi problemi mümkünsə gündəmə gətirəsiniz, çünki Şəhidlər Xiyabanı xalqımız üçün ləyaqət məsələsidir! Azərbaycan xalqı üçün Şəhidlər Xiyabanı elə bizim Kəbəmizdir! Şərəfli tariximizi qorumaq hər birimizin müqəddəs borcudur!"

**Sosioloq Əhməd Qəşəmoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ətrafında gərginlik yaratmamağa çalışan insanlar mədəni insan hesab olunur. Ekspert regionlarda şortiklərdə gəzməyi doğru hesab etmir. O ki qaldı Şəhidlər Xiyabanına, Ə.Qəşəmoğlu hesab edir ki, bu barədə yerli əhali arasında maarifləndirmə işləri aparılmalıdır: "Əcnəbi ölkələrdə yaşayanların şortik haqqında düşüncələri tamam ayrıdır. Turistin ağlına gəlmir ki, Şəhidlər Xiyabanına şortiklə getmək pis qəbul oluna bilər. Buna görə də bu kimi hallara təmkinlə yanaşmalıyıq. İnsanlar şəhərdə şortiklə sərbəst gəzirsə, bunu rahat qəbul etmişiksə, Şəhidlər Xiyabanını da bu geyimdə ziyarət etməsində pis heç nə yoxdur. Müdaxilə etmək, polisə müraciət etmək və s. ehtiyac yoxdur. Bu, əksinə, gərginlik yarada bilər. Turistlər öz ölkələrində bunu neqativ danışa bilərlər. Onlar belə düşünürlər ki, küçədə şortiklə gəzmək məqbuldursa, Şəhidlər Xiyabanına da getmək olar".

**Rey Kərimoğlu mövzunu şərh edərkən qeyd etdi ki, xarici turistin geyiminə müdaxilə etmək çətin məsələdir:** "Xarici turistə necə deyək ki, şortik yox, şalvar gey!? Belə hallar qanunvericiliklə tənzimlənsə, daha rahat olar. Azərbaycan İran deyil. Şəhidlərimizə hörmət etmək lazımdır. Hesab edirəm ki, Şəhidlər Xiyabanına şortiklə gəlinməsə, daha yaxşı olar, amma geyinilibsə, sərt reaksiya vermək doğru deyil. Xarici ölkələrdə bəzi ziyarətgahlarda geyimə diqqət edilir. İstənilən halda, belə məsələlər qanunvericiliklə tənzimlənsə, daha münasib olar".

**❑ Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# "Biləsuvar-Quşçuluğ"un rəhbəri işçilərin pulunu verməkdən imtina edir

## Böyük fırıldağa məruz qalanlar daxili işlər nazirindən kömək istəyir

**"Biləsuvar-Quşçuluq" ASC-nin rəhbəri Seyran adlı şəxs 30 Azərbaycan vətəndaşını qul kimi işlədib, indi də "gedin kimə istəyirsiz deyin, mən qanun-qayda saymıram" deyib pullarını vermir.**

"Yeni Müsavat"ın redaksiyasına müraciət edən zərərçəkənlər daxili işlər naziri Vilayət Eyvazovdan kömək istəyirlər. Deyirlər ki, Biləsuvar Polis Şöbəsinə müraciət edib qanunsuzluğa son qoyulacağını düşünüblər. Lakin proses onların düşündüyü tərəfə istiqamət almayıb.

"İlk olaraq Seyranı polis şöbəsinə çağırdılar, ifadəsini aldılar, o da bizlərə yalvarmağa başladı ki, şikayət etməyin, pulunuzu verəcəyəm. Amma sonradan vəziyyət dəyişdi. Polis şöbəsindən çıxandan sonra Seyran dedi ki, "gedin kimə istəyirsiz şikayət edin, mən sizə pul verən deyiləm". Hörmətli cənab nazir, polis şöbəsində şikayətimizə hazırda olduqca biganə yanaşılır, son nəticədə mülki iş kimi rəsmiləşdirilməsinə cəhdlərin olacağına dair Seyranın yaxın ətrafından məlumat almışıq. Halbuki bu adam bizləri işlədib və pulumuzu verməməklə, açıq-aşkar dələduzluq etməkdədir. Sizdən xahiş edirik ki, məsələni şəxsi nəzarətinizə götürməklə araşdırılmasına göstəriş verəsiniz"- zərərçəkənlərdən Mübariz Quluzadə belə deyib.




**Zərərçəkən Əmrah Hüseynov isə bildirib ki, 2012-ci ildən tikinti-beton işləri ilə məşğul olur, briqada şəklində fəaliyyət göstərirlər:** "Mübariz Quluzadəni 6 ilə yaxındır tanıyıram. Tikintidə briqadir kimi onunla iş yoldaşıyam. 08.08.2022-ci il tarixdə Mübariz bizi Biləsuvar rayonu, Səmədabad kəndində yerləşən quşçuluq fabrikinə tikinti-təmir işləri görmək üçün gətirdi. Mən 15 gün həmin fabrikdə gecə-gündüz beton tökmüşəm, mayak qoymuşam və hamarlama işlərini görmüşəm. Mən günü 50 manata işləmişəm, 15 günə mənə 750 manat pul verilməli olduğu halda Seyrandan pulumuzu ala bilmirik. Seyran Biləsuvar rayonu, Səmədabad kəndi ərazisində Quşçuluq fabrikini işlədirdi. Onunla həmin quşçuluq fabrikində görüşdük. Mənə görüləcək işləri şəxsən Seyran özü göstərib, sexlərin içərisində yerin hamarlayıcı qatını betonlamaq, təmir tikinti işlərini görmək və yeni pəncərə yerlərinin açılması və suvaq işlərini görməsini bizdən tələb etdi. Onunla şərtimiz belə oldu ki, hissə-hissə onun işlərini görəcəkdik, hər həftə pulumuzu ödəyəcəkdi. Sexin yerinin betonlanmasında 17 şəxs işləyib. Ayrı-ayrı işlərin görülməsində ümumilikdə 30 işçi işləmişik. İmişli Beton Zavodundan 400 kub beton almışam, 26 min manat zavoda borclu qalmışam. Betonun içərisinə qoyulması üçün 4000 m setkanı Bakı şəhərindən almışam və mal sahibinə 8300 manat borclu qalmışam. Betonun içəriyə vurulması üçün pompa maşın gətirmişəm, 4 gün işləyib, 6500 manat borclu qalmışam. 40 min 800 manat material və texnikanın puludur, 8 min 200 manat bizə zəhmət haqqı verməli idi. İşi görüb qurtardıqdan sonra Seyran pulu vermədi. Bəhanələr gətirdi, guya sexin yerini betonlayarkən tam hamar, yəni parlaq olmayıb, matıvı vurulub. Mən təkrar aparat gətirdim, 6-7 min manat xərc çəkdim, sexin betonunu parlaq hala gətirib yondum. Bundan sonra Seyran başqa bəhanələr gətirdi, kanalların çəkilməsini tələb etdi, biz kanalları da çəkdik. Mən ondan görülmüş işlərlə bağlı təhvil-təslim olunmasını və pullarımızı ödəməsini tələb etdim. Quşçuluq fabrikinə gəldim, onun sexdə işlərini görən Vasiflə görüşdüm. Digər işlərlə bağlı aramızda akt yazmışdıq, Vasif, hansı ki, pullarını verdikləri işlərlə bağlı sənədlərə imza atdı. Lakin beton işinin sənədinə imza atmadı, dedi Seyran müəllim bildirib ki, beton işini özü təhvil-təslim edəcək. Bu söhbətimiz 2022-ci ilin oktyabr ayında, işi görüb qurtardıqdan 2 ay sonra oldu. Bundan bir həftə sonra Vasif bildirdi ki, Seyran müəllim gəlib. Mən Səmədabad kəndində yerləşən Quşçuluq fabrikinə getdim və Seyranla görüşdüm. Seyran bildirdi ki, betonun markasında məni aldadıblar, marka 200 olmalıdır, mənim bəsimdir, 150 marka olduğu üçün mən pulunu vermirəm. Bakıdan betonun markasını yoxlamaq üçün mütəxəssis gətirdim, yoxladıq, məlum oldu ki, betonun markası 200-dən yuxarıdır. Bundan sonra Seyran daha bir bəhanə uydurdu, dedi ki, işi səninlə danışmamışam, Xalidlə və Zaminlə danışmışam. Beton işlərinin mənim tərəfdən görüldüyünü xatırlatdım, dedim ki, Xalid və Zaminlə əlaqə saxla, pullarımız ödənilsin. Seyran danışaram desə də, sonradan dedi ki, mən sizi tanımıram və pulunuzu da vermirəm, gedin kimə istəyirsiz deyin!"

**Zərərçəkənin sözlərinə görə, ümid yerləri daxili işlər naziridir:** "Cənab nazirə mətbuat vasitəsilə müraciət etmək məcburiyyətindəyik. Hesab edirik ki, cənab nazir 30 Azərbaycan vətəndaşına qarşı dələduzluq işini şəxsi nəzarətinə götürsə, qısa zaman ərzində bizim haqqımız ödənəcək. Seyranın bizim haqqımızı ödəmək üçün kifayət qədər pulu və imkanı var. Sadəcə, tərslik edir, qanunları saymır. Hüquq-mühafizə orqanı ona Azərbaycanda yaşadığını, Azərbaycan qanunlarına tabe olmalı olduğunu xatırlatmalıdır".

"Yeni Müsavat" əməkdaşı məsələ ilə bağlı "Biləsuvar-Quşçuluq" ASC-nin rəhbəri ilə əlaqə saxlayıb. O, ittihamlara münasibət bildirməkdən yayınıb.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 86 (8222) 19 may 2023

# Xankəndidə “çevriliş”, Laçın postu yaxınlığında təxribat hazırlığı

## Samvel Babayanın “geniş səlahiyyətlərə malik dövlət naziri” vəzifəsinə təyin olunması tələb edilir; ermənilər niyə sərhəd-buraxılış məntəqəsinin yaxınlığında toplaşmaq istəyir?



**Mayın 20-də revanşist və işğalçı xislətli ermənilər Ermənistanın Laçın rayonu ilə sərhədində yerləşən Gorunzur (“Kornidzor”) kəndi yaxınlığında Azərbaycan əleyhinə aksiya keçirməyi planlaşdırır. “Pastinfo” nəşrinə açıqlamasında aksiyanın təşəbbüskarlarından biri, “Könüllülər hərəkatı”nın üzvü, Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının səfərbərlik-təşkilat idarəsinin sabiq rəisi, ehtiyatda olan polkovnik Artaşes Mxitaryan danışıb. Erməni polkovnikin sözlərinə görə, aksiyada əsas məqsəd “Ermənistanın "artsax"la bir olduğunu və Azərbaycana qarşı hadisələrin davam edəcəyini nümayiş etdirməkdir”, - deyə Moderator.az erməni nəşrinə istinadən yazır.**

Mayın 20-si, saat 12-də keçiriləcək aksiyanın Azərbaycan dövlətinin bu yaxınlarda beynəlxalq qanunlara tam uyğun olaraq öz sərhədində - Gorus-Laçın-Xankəndi yolunun Azərbaycana giriş hissəsində, Həkəri çayı üzərindəki körpüdə qurduğu sərhəd-buraxılış məntəqəsinin yaxınlığında keçirilməsi nəzərdə tutulur. Və hayklar bununla həmin məntəqənin qurulmasına da etirazlarını ifadə etmək istəyirlər.

Qeyd edək ki, mayın 15-də Xankəndidə Samvel Babayanın təşkil etdiyi “mitinq” keçirilib. Birinci Qarabağ müharibəsi zamanı erməni separatçılarının səhra komandirlərindən biri, Rusiya Baş Qərargahının Frunze adına Hərbi Akademiyasının məzunu Samvel Babayanın bir qrup tərəfdarı Araik Arutyunyana ultimatum irəli sürərək, Babayanın “geniş səlahiyyətlərə malik dövlət naziri” vəzifəsinə təyin olunmasını tələb edib. Separatçı rejimin başçısı Araik Arutyunyan bildirib ki, ermənilərin tələbləri yazılı formada ona çatdırılıb və bu istiqamətdə müzakirələrə hazırdır. Bəs Babayan hansı “xilas proqramı” təqdim edib? “Generalın” özünün də izah etdiyi kimi, bura Qarabağda “peşəkar ordu”nun yaradılması, “demoqrafik problemin həlli” (yəni əhalinin artımı), eləcə də “iqtisadi islahatlar və sosial problemlərin həlli” kimi maddələr daxildir. Bildirilir ki, Babayan inadla Xankəndində “hakimiyyəti” ələ keçirməyə can atır və məqsədinə çatmağa yaxın görünür. “Hraparak” qəzeti Xankəndidəki mənbələrinə istinadən hesab edir ki, danışıqlar üçün ayrılan on gündən sonra Arutyunyan Samvel Babayanı “dövlət naziri” təyin edəcək. Babayanın “Paşinyanın adamı” olması ilə bağlı xəbərləri israrla təkzib edir. Ermənistan mətbuatına müsahibəsində o, Paşinyanla tamamilə əks mövqedə olduğunu demişdi. Haqqın.az yazır ki, Birinci Qarabağ müharibəsi zamanı Babayanın QRU-ya yaxın olması ilə bağlı xəbərlər yayılmışdı, baxmayaraq ki, bu münasibətlərin 2000-ci illərin əvvəllərində, Babayan bir neçə illik şübhəli biznesindən sonra Rusiyaya qayıdan və Serj Sərkisyan hakimiyyətinə fəal şəkildə qarşı çıxmağa başlayanda pisləşdiyi barədə məlumatlar var idi. Hətta iddia olunurdu ki, Rusiya hakimiyyəti Babayanın ölkəyə girişinə qadağa qoyub. “Generalın” son illərdə Rusiya dairələri ilə əlaqələr qura bilib-bilmədiyi barədə məlumat ictimaiyyətə açıqlanmır. Görünən odur ki, ermənilər indi də bu cür təxribatçı aksiyalar keçirməklə diqqəti özlərinə cəlb etmək istəyirlər.

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə burada tək bir yol görür:** “Ermənistan siyasətçilərinin bir çoxunun siyasi taleyi Qarabağla bağlı olduğu üçün təsadüfi deyil ki, Vardanyan Qarabağda uğurlu karyera qurandan sonra Ermənistanda hakimiyyətə gəlməyi planlaşdırır, Ermənistanı 2041-ci il (böyük revanş ili) üçün hazırlayacağını bəyan edirdi. Bütün bu planları Azərbaycan Prezidentinin qəti iradəsi pozdu və puç etdi. Artıq Vardanyan Qarabağda heç bir səlahiyyət gücünə malik deyil. İndi dövrüyəyə buraxılan Xocalı qatili Babayanın tarixçəsində də Ermənistan siyasətinə gəlmə nüansları görülür. Məsələn, o, 2021-ci ildə Ermənistanda parlament seçkilərinə qatılıb, siyasətə qoşulmaq istəyib. Digər Xocalı qatilləri Köçəryanın, Sərkisyanın Rusiyaya bağlı olduğunu nəzərə alsaq, Babayanın da Paşinyanı devirərək onun yerinə gəlmə planlarının Qarabağdan keçdiyini təxmin etmək olar. Babayanın və hamilərinin bu niyyətinin də Azərbaycanın milli iradəsi ilə məhv olacağına ümid edirəm.

Burada digər nüans Qarabağın öz taleyində Rusiyaya bağlı şəxslərin oynaya biləcəyi rolla bağlıdır. 1990-cı illərdə “Miatsum”, yəni Qarabağın Ermənistana birləşdirməsi baş tutmayacağı yəqin ediləndən sonra qlobal erməni şəbəkəsi 2 fərqli ssenari üzərinə kökləndi - 1.Qarabağın “müstəqilliyinin” təmin edilməsi; 2.Qarabağın Rusiyaya birləşdirilməsi. Birinci ssenarini gerçəkləşdirə bilməyən ermənilər indi ikinci ssenari üzərinə fokuslanmağa çalışırlar. Bunu anlamaq üçün Qarabağdakı “Rus İcması”nın fəaliyyətini dərindən izləmək yetərlidir. Qlobal siyasətdə bu gün baş verən hadisələr 10 illər sonrası üçün hesablanan nəticələr doğurur. Odur ki, baş verən prosesləri günlük hadisələr olaraq qiymətləndirmək olmaz. Qarabağa Rusiya vətəndaşı, milyarder erməni Ruben Vardanyanın gətirilməsi nə qədər planlanmışdısa, “Babayan layihəsi” də eyni şəkildə planlanmışdı. Xatırlayırsınızsa, ötən aylarda qondarma rejimin rəhbərliyi Vitali Balasanyanı təhlükəsizlik şurası rəhbəri vəzifəsindən çıxardı. O, Azərbaycanın milli qəhrəmanı Allahverdi Bağırov haqda “o mənim dostum olub” ifadəsini səsləndirən erməni generalı idi. Hətta bəzi erməni dairələri onu “xain” hesab edirdi. Məsələn, Samvel Babayan terrorçu Monte Melkonyanın öldürülməsində Balasanyanın əlinin olduğunu iddia etmişdi. Bir sözlə, Qarabağda kimsə, qəsdən revanşist qüvvələrin əlini gücləndirməyə çalışır. Bu fonda təxribatlar, “etiraz mitinqləri” təşkil olunur. Təbii olaraq bütün bu terrorçu ünsürləri Azərbaycan torpaqlarından rədd etməyin tək yolu antiterror əməliyyatıdır, çünki onların hamısı I Qarabağ müharibəsində azərbaycanlılara olmazın işgəncələr verən terrorçulardır".

**Politoloq Tural İsmayılov ermənilərin cəhdlərini əhəmiyyətsiz sayır:** “Ermənistan Azərbaycandan hər şey oğurlamağa çalışır. Azərbaycan ekoaktivistlərinin aksiyaları vəziyyətin dəyişməyinə səbəb oldu. İndi bu mənfurlar bizim aktivistlərin aksiya ideyasını oğurlayaraq qondarma mitinqlər edirlər. Nəticədə vəziyyət tragikomik hal alır. Əvvəlcə nəzərə almalıyıq ki, Samvel Babayan və ətrafındakı terrorçu tör-töküntülərin erməni ictimai rəyində vəziyyəti acınacaqlıdır. Rasional düşünən ermənilər Samvel Babayanın Vardanyanla əvəzlənməsi cəhdlərini görür. Çünki Paşinyana yaxın olan indiki qondarma "dövlət naziri" Qurgen Nersisyan Rusiyanı qane etmir. Rusiya Babayanla anlaşaraq ortaya yeni oyunlar atır. Digər tərəfdən, təşkil edilən “mitinqlər” əhəmiyyətsizdir. Azərbaycan öz ərazilərində sərhəd-buraxılış məntəqəsi quraşdırıb. İnsanların normal gediş-gəlişinə hər bir şərait yaradılır. Hansısa “aksiyaların” bizə heç bir əhəmiyyəti yoxdur. Azərbaycan öz haqq işini sonuna qədər müdafiə edəcək".

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov qondarma rejim daxilindəki vəziyyətin durmadan gərginləşdiyini qeyd etdi:** “Ermənistanla Azərbaycan arasında sülh istiqamətində addımlar atıldıqca, tərəflər danışıqlara yaxınlaşdıqca, bu, qondarma respublika daxilində əks-effekt verir. Qondarma rejim daxilində vəziyyət gərginləşir. Separatçılar "vurnuxmaqla" yanaşı, həm də bir-birilərini ittiham etməyə başlayırlar. Onların səylərinin nəticə verəcəyinə inanmıram. Əksinə, Qarabağ daxilindəki hazırkı durum bizə sərf edir. Daxili çaxnaşma vahid qərar qəbul edilməsinin qarşısını alır. Bu, təxminən Rusiya Silahlı Qüvvələrindəki hazırkı durumu xatırladır. Separatçıların addımlarından narahat olmağa dəyməz. Necə deyərlər, sirkə nə qədər tünd olsa, öz küpünü çatladar. Biz Qarabağdakı prosesləri diqqətlə izləməli və hər böhranı fürsətə çevirməliyik. Gələcəkdə Qarabağda “müxtəlif vəzifəli şəxslərin” “istefaya göndərilməsi” və ya onlara qarşı sui-qəsd cəhdləri mümkündür. Bunlar bizim maraqlarımıza cavab verir. Separatçılar nə qədər çox “çalxalanarsa”, biz Xankəndinə o qədər yaxınlaşarıq”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Ehtiyatda olan hərbçilərlə bağlı qanun dəyişir-müharibə hazırlığı...

## Hərbi ekspert: "Bu, məxfiliyin daha ciddi şəkildə qorunması baxımından da vacibdir"

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin mayın 17-də keçirilən iclasında hərbi qanunvericiliyə təklif olunan dəyişikliklər müzakirə olunub və plenar iclasa tövsiyə edilib. Komitə sədri gündəliyin birinci məsələsini - "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş qanun layihəsində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərində həqiqi hərbi xidmətə çağırılmış və ya könüllü daxil olmuş şəxslərin hərbi qeydiyyatdan çıxarılması qaydasının təkmilləşdirilməsi, habelə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin ehtiyatını təşkil edən dairənin dəqiqləşdirilməsi nəzərdə tutulur. Məsələ ətrafında aparılan müzakirədə çıxış edən deputatlar Arzu Nağıyev, Aydın Mirzəzadə təklif olunan dəyişiklikləri müsbət qiymətləndiriblər.**



Sonra komitə sədri gündəliyin ikinci məsələsi olan "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. Ziyafət Əsgərov qeyd edib ki, qanun layihəsində hərbi qeydiyyat anlayışının dəqiqləşdirilməsi, müvafiq icra hakimiyyəti orqanında müddətli həqiqi hərbi xidmətdən buraxılmış, həmçinin müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatdan çıxarılmış hərbi vəzifəlilərin hərbi qeydiyyat qaydasının təkmilləşdirilməsi nəzərdə tutulur. Layihədə həmçinin texniki xarakterli dəyişikliklər var. Hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Rövşən Məhərrəmov məsələ ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, qanuna ediləcək dəyişikliklə hərbi qeydiyyatın təşkili qaydası təkmilləşdirilir və bu təkmilləşməyə ehtiyac var idi**. ""Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda əgər hazırda müvafiq icra hakimiyyəti orqanından ehtiyata keçirilmiş hərbi vəzifəlilərin hərbi qeydiyyatı həmin orqan tərəfindən aparılırsa, yeni layihəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin hərbi qeydiyyatı həmin orqan tərəfindən mərkəzləşdirilmiş qaydada aparılacaq. Müvafiq icra hakimiyyəti orqanı həmin hərbi vəzifəliləri onların hərbi qeydiyyat sənədlərində hərbi qeydiyyatda olmaları barədə müvafiq icra hakimiyyəti orqanının qeydi olduğu təqdirdə yaşayış yeri üzrə qeydiyyata almalı və ya qeydiyyatdan çıxarmalıdır. Müvafiq icra hakimiyyəti orqanında müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, həmçinin müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilər bu qanunda nəzərdə tutulmuş qaydada hərbi qeydiyyata alınacaqlar. Qüvvədə olan qanuna əsasən, müvafiq icra hakimiyyəti orqanından ehtiyata keçirilmiş hərbi vəzifəlilərin hərbi qeydiyyatı həmin orqan tərəfindən aparılır. Qanuna ediləcək dəyişiklikdə isə hərbi qeydiyyat anlayışının dəqiqləşdirilməsi, müvafiq icra hakimiyyəti orqanında müddətli həqiqi hərbi xidmətdən buraxılmış, həmçinin müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilərin hərbi qeydiyyat qaydasının təkmilləşdirilməsi nəzərdə tutulur.

Daha sadə şəkildə desək, mövcud qanunda xüsusi təyinatlılarda, kəşfiyyatda, əks-kəşfiyyatda xidmət eləyib ehtiyata buraxılanlar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrində qeydiyyatda dururdular. Qanuna təklif edilən dəyişiklikdə isə birbaşa Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində qeydiyyatda olacaqlar ki, onlar lazım olduqları anda onları hər rayon üzrə axtarmağa ehtiyac qalmasın, proses daha operativ qaydada, daha sürətli həyata keçirilə bilsin. Bu, həmçinin məxfiliyin daha ciddi şəkildə qorunması baxımından da vacibdir. Müəyyən rayon şöbələrində məxfilik ola bilər ki, yetərli olmasın, müəyyən sızma olsun, lakin baş idarədə - Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində bu cür neqativ hallar olmayacaq. Bir sözlə, qanuna bu dəyişiklikləri əslində çoxdan etməliydik".

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Rusiya "slavyan İsraili"nə çevrilir

## Jurnalist Dmitri Popov "ukraynalıları fələstinlilərə, Rusiyanı İsrailə" bənzədib

**Rusiyalı jurnalist Dmitri Popov "Moskovski komsomolets" nəşrindəki məqaləsində "ukraynalıları fələstinlilərə, Rusiyanı İsrailə bənzədib." "Moskovski komsomolets" nəşrindəki məqaləni Moderator.az-a istinadən təqdim edirik.**



"Dünyada onilliklərlə davam edən qarşıdurmalar nümunəsi var və mümkündür ki, bu, bizi də gözləyir. Və bu, heç də iki Koreya deyil. Ukraynanın hücumu ilə bağlı vəziyyət, deyəsən, dalana dirənib, çünki bizim güclü raket zərbələri lazımi hədəfləri aşkar edir, Ukraynanın potensialı aşağı düşür.

Kiyevə bundan sonra silah dəstəyi "hücumun" uğurundan asılıdır. Zelenski Avropa ölkələrini dolanaraq hər şeyin, amma bir qədər sonra olacağını vəd edir, indi isə "silah verin" deyir. Və silah verilir. Tankları vermək istəmirdilər, verdilər. Uzaqvuran raketləri vermək istəmirdilər, verdilər. İndi də təyyarələri vermək istəmirlər, ola bilsin ki, verəcəklər. Bu, nəyisə qlobal olaraq dəyişirmi?

Cəbhədə baş verənləri nəzərə alsaq, dəyişmir. Yeri gəlmişkən, bu barədə yuxarıda əyləşən rəsmi şəxslər də deyir. Eskalasiya taktiki nüvə silahının tədarükünə gətirib çıxaracaqmı? Çətin. Praqmatik Qərb intihara getməz.

Silah tədarükü, Ukraynaya kreditlər verilməsi milli iqtisadiyyatlar üçün getdikcə baha başa gəlir. Rusiyanı sanksiyalarla sındırmaq da alınmayıb (bunu Qərb ekspertləri də etiraf edir), ölkənin hərbi potensialı kifayət qədər yüksəkdir.

Ona görə də, məsələn, amerikalı araşdırmaçı jurnalist Herş ("Şimal axını"nda partlayışların üstünü açan) iddia edir: Qərbi Avropada və Baltikyanıda həqiqətən hesab edilir ki, Zelenskinin "özünə gəlməsi" və dinc nizamlanmaya səy göstərməsi zamanı yetişib. Lakin bu, tez bir zamanda baş verməyəcək, odun tükənmək üzrə olsa da, hələ var. Ona görə də münaqişənin qaynar fazası Qərbin Ukraynaya bundan sonra dəstəyinin özünü məhvetməyə bərabər olması həddinə çatmayanadək davam edəcək.

Amma buna heç kim getməyəcək. Çünki ukraynalılar onların xalqı deyil, onların adamları deyil. Qəlbinin dərinliklərində Qərb anlayır ki, ukraynalılar "təmiz avropalı" deyil, daha çox Rusiyanın adamlarıdır, slavyandır, amma bunu heç vaxt açıq şəkildə etiraf etməyəcək.

Bax, o zaman xüsusi hərbi əməliyyatın məqsədlərinə nail olunacaq. Onları Putin elan edib, təkrar etmək yerinə düşər: Donbasda insanlarımızı müdafiə etmək, Kiyev rejiminin demilitarizasiyası və denasifikasiyasını həyata keçirmək.

Hipotetik olaraq ordu (hərçənd ehtimal ki, buna ehtiyac olmayacaq) Polşa sərhədlərinədək çata bilər, lakin Rusiyanın məsul rəhbərlərindən heç kim Ukraynanın Rusiyanın bir hissəsi olacağını deməyib. Ayrı-ayrı regionların, geri qaytarılanlarla birgə, olması mümkündür. Bu, Ukraynanın ağır silahlarının (Rusiya ordusunun "utilə çevirdiyi") olmaması ilə birlikdə insanlarımızın müdafiəsini təmin edəcək və "demilitarizasiya" bəndini icra edəcək. Denasifikasiya Kiyev rejiminin hökmən rusiyayönümlü deyil, rusofobiyanı dövlət siyasəti səviyyəsinə yüksəltməyən neytral rejimlə əvəzlənməsi deməkdir. Buna baxmayaraq, Ukraynada radikal qruplar və siyasi xadimlər qalacaq. Sonucda İsrail-Fələstin münaqişəsinin slavyan variantı alınacaq. Bir xalq (etnik olaraq) iki qonşu dövlətdə yaşayır, onların arasında nə sülh, nə müharibə var. Hətta sərhədlər də pis-yaxşı açıqdır, insanlar bir-birini ziyarət edir, ticarət həyata keçirilir, xüsusi xidmət orqanları təmaslarda olur ki, "bespredel" başlamasın.

Lakin sərhəd rayonlarında həyat narahatdır. Elə ekstremistlər də gah terror aktları, gah da əldəqayırma raketlər və PUA-larla atəşlər törədir. Bundan sonra cavabını alır. Belə həyatın elementləri artıq indi bizdə də müşahidə edilir. Terror aktlarına görə "qisas zərbələri", düşmənin diversiya qruplarının ələ keçirilməsi, yarımkustar üsulla hazırlanmış PUA-ların Rusiyanın dərinliklərinə uçub gəlməsi baş verir. Ola bilsin ki, bunlar gündəlik həyatımıza çevrilsin. Bəlkə də buna vərdiş etmək lazım gələcək".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Artıq içiləndə dərd verir o da - niyə suyumuz çatışmır?

## Üçüncü dünya müharibəsi suya görə başlanacaq

**Su ehtiyatları tükənən sərvət olduğundan onun inteqrasiyalı və səmərəli idarə olunması çox vacib aspektdir. Belə ki, su ehtiyatlarının səmərəli idarə edilməsi BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədlərinin, təbii fəlakət risklərinin azaldılmasına dair Sendai Çərçivə Proqramında və Paris Sazişi kimi beynəlxalq müqavilələrə daxil edilib. Dünya İqtisadiyyat Forumu ardıcıl üçüncü ildir ki, su böhranını ilk üç vacib qlobal risklər siyahısına daxil edir. Bu baxımdan suların çirklənməsinin qarşısının alınması məqsədilə tədbirlər görülür, suların transsərhəd çirklənməsinin qarşısının alınması üçün transsərhəd diaqnostik analizlər aparılır, milli, regional və qlobal səviyyədə müxtəlif layihələr həyata keçirilir.**



**Təhlükəli sulara görə xəstəxanaya düşənlərin sayı artıb**

Dünyanın bir çox ölkələrində bu qaçılmaz böhrana hazırlıq üçün dövlət planı mövcuddur. Dünyadakı xəstəxanalarda yatan şəxslərin əksəriyyəti təhlükəli sulardan istifadə ilə bağlı xəstəliklərdən əziyyət çəkirlər. Bir neçə il əvvəl Azərbaycan ən az şirin su ehtiyatlarına sahib ölkələr siyahısına düşüb. Dünya Bankı Azərbaycanı regionun və hətta dünyanın ən az su ehtiyatlarına sahib ölkələri siyahısına daxil edib.

Qarşıdakı problemlərin mühümlüyü ilə bağlı mübahisələr artıq yaranmır. Hər gün dünyada içməli su ehtiyatları azalır və Azərbaycanda digər ölkələrdə olduğu kimi, bu vəziyyətlə bağlı tədbirlər planı var. Bu gün ölkəmizdə 30,9 kub kilometr içməli su ehtiyatı var. Onlardan 20,6 kub kilometr Azərbaycana xaricdən gəlib çatan çayların, qalan 10,3 kub kilometr isə ölkə ərazisindən axan çayların payına düşür.

**Su ehtiyatı regionlar arasında bərabər bölünməyib**

Abşeron yarımadasında Azərbaycanın digər ərazilərindən fərqli olaraq, daha çox içməli suya tələbat var. Məhz bu səbəbdən yarımadada bir neçə içməli su mənbəyi var. Bakı bunun üçün yerüstü (Samur və Kür çayı) və yeraltı (Şollar) su ehtiyatlarından istifadə edir. Paytaxtın əsas içməli su mənbəyi Ceyranbatan su anbarı hesab edilir. Bu anbarın su tutumu 186 milyon kubmetr, uzunluğu 8,74 kilometr, maksimal eni 2,15 kilometr, maksimal dərinliyi 28,5 metr, orta dərinliyi 14,5 metrdir. Anbara su Samur-Abşeron kanalı vasitəsilə daxil olur.

2015-ci ildə Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olub. Kompleks Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir. Bu gün Azərbaycanda içməli su ilə bağlı problemlər yalnız Aran rayonlarında müşahidə edilir. Ekspertlər bildirirlər ki, ölkəmizdəki 30,9 kub kilometr su ehtiyatı regionlar arasında bərabər bölünməyib. Misal üçün, dağlıq ərazilərə daha çox çay və içməli su payı düşür, Aran bölgəsində isə bu çaylar artır çirklənmiş olur. Bu sudan daha çox suvarma məqsədi ilə istifadə edirlər.

Əgər biz bu itkilərin qarşısını alsaq, Azərbaycan içməli su ehtiyatları ilə bağlı dünya standartlarına uyğunlaşacaq. Bizim əsas üstünlüklərimizdən biri Xəzər dənizinin olmasıdır. Biz ərəb ölkələri kimi dəniz suyunu duzsuzlaşdıra bilərik. Ola bilsin ki, hansısa 30-50 ildən sonra biz Xəzər dənizinin suyunu içəcəyik. Bu gün ölkəmizdə Salyan rayonunun kəndlərindən birində Xəzərin suyunun duzsuzlaşdırılması üçün pilot layihə var.

**Krandan gələn su nə qədər təmizdir?**

"The Guardian" yazır ki, bütün dünya boyunca evlərin içməli su kranlarından gələn suyun mikroplastik zərrəciklərlə dolu olduğu aşkar edilib.

Məqalədə deyilir ki, onlarla ölkədə evlərin kranlarından götürülən su nümunələri alimlər tərəfindən analiz edilib və ümumilikdə bütün suların 83 faizinin tərkibində plastik liflər tapılıb.

ABŞ-da Konqres binaları, Ətraf Mühiti Mühafizə Agentliyinin qərargahı və hətta Nyu-Yorkdakı "Trump Tower" hoteli də daxil, kranlardan götürülmüş suyun 94 faizində plastik zərrəciklər aşkar olunub. ABŞ bütün dünyada suyun ən çox çirkləndiyi ölkədir. Onun ardınca Livan və Hindistan gəlir.

Britaniya, Almaniya və Fransa da daxil, Avropa ölkələrində ən az çirklənmə qeydə alınsa da, plastik lif tərkibli sular 72 faiz təşkil edib.

500 milliqramlıq su nümunələrində ABŞ-da orta hesabla 4, 8, Avropada isə 1, 9 plastik lif aşkar edilib.

Bundan əvvəl alimlər əsasən ətraf mühitin, okean sularının mikroplastik çirklənmə dərəcəsini öyrənmişdilər. Bəlli olmuşdu ki, insanların qida kimi istifadə etdikləri dəniz məhsullarının özlərində də plastik liflər var.

New York Universitetinin mikroplastika eksperti Sherri Mason deyir ki, əgər dənizlərdəki balıqlar liflərlə dolu dursa, deməli, insanlar da bu neqativ haldan kənarda qala bilməzdilər.

**Suya görə müharibə?**

Azərbaycan su ehtiyatları ilə zəif təmin olunan ölkələr sırasındadır. Amma ekoloq və mütəxəssislər də bu sahədə "həyəcan təbili" çalırlar. Su ehtiyatlarının azalmasının səbəblərinə gəlincə, bu, ona olan tələbatın çoxalması, əhalinin sayının artımı nəticəsində əlavə ərazilərin kənd təsərrüfatı dövriyyəsinə daxil edilməsi və həmin ərazilərin su ehtiyatlarından istifadə etməsidir. Digər tərəfdən, Azərbaycan ərazisinin 60 faizindən çoxu quraq ərazilərdir. Həmin ərazilər də əsasən əkinçilik zonasını təşkil edir. Kür-Araz ovalığı, Qarabağ, Mil, Şirvan, cənub-şərqi Şirvan düzü, Gəncə-Qazax düzündə əkilən bitkiləri vegetasiya dövründə bir neçə dəfə suvarmaq lazımdır. Suyun azalmasının bir səbəbi də həmin əkinlərin suvarılması ilə bağlıdır. İqlim amilləri də burada əsas rol oynayır. Temperaturun yüksəlməsi, atmosfer yağıntılarının azalması və buxarlanmanın çoxalması iqlim dəyişikliyinə və nəticədə su ehtiyatlarının azalmasına gətirib çıxarır. Bu gün su qıtlığı ilə nəinki Azərbaycan, hətta bütün dünya mübarizə aparır. Mütəxəssislər üçüncü dünya müharibəsinin torpaq, iqtisadi resurslarla bağlı deyil, məhz su ilə bağlı olacağını düşünürlər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# İçməli su ilə bağlı yeni dövlət standartı qüvvəyə mindi

**Azərbaycanda "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" AZS 929:2023 dövlət standartı qüvvəyə minib.**



Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yaydığı məlumata görə, yeni standart BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Konvensiyasının "Su və Sağlamlıq Protokolu"na əsasən Azərbaycan Respublikası tərəfindən rəsmi qəbul edilmiş Məqsədli Göstəricilərin icrası ilə əlaqədar Səhiyyə Nazirliyinin əmri ilə yaradılmış işçi qrup tərəfindən hazırlanıb. Aidiyyatı dövlət qurumlarının, elmi müəssisələrin, vətəndaş cəmiyyəti institutunun müsbət rəyini almış yeni standart İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Standartlaşdırma İnstitutunun (AZSTAND) qərarı ilə təsdiq edilib.

AZS 929:2023 "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" standartına mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş su təchizatı sistemlərində içməli suyun təhlükəsiz idarə edilməsinə dair tələblər, içməli suyun keyfiyyət göstəriciləri və onların yol verilən qatılıq hədlərinin siyahısı daxildir. Bu standart Ümumdünya Səhiyyə Təşkilatının Avropa ofisi tərəfindən təqdim olunan işçi sənədin tövsiyələri, insan istehlakı üçün nəzərdə tutulmuş suyun keyfiyyətinə dair 16 dekabr 2020-ci il tarixli 2020/2184 saylı Avropa Parlamenti və Avropa Şurası Direktivi, QOST 2874-82, SanPin 2.1.4.1074-02, USEPA standartları nəzərə alınaraq tərtib olunub.

Yeni standarta əsasən, içməli suyun mikrobioloji (8 göstərici), orqanoleptik, fiziki-kimyəvi (100 göstərici) və radioloji (2 göstərici) göstəriciləri öyrəniləcək. Qeyd edək ki, indiyə qədər ölkəmizdə içməli suyun keyfiyyətinə nəzarət SSRİ dövrü qəbul olunmuş QOST 2874-82 standartları əsasında aparılırdı.

YENİ MÜSAVAT
Son səhifə
N 86 (8222) 19 may 2023

## Bunları bilirsinizmi?

* Bazar ertəsi günləri 25% bel travması və 33% ürək tutması halları daha çox baş verir.
* Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.
* Orta hesabla insan həyatının iki həftəsini işıqforun rəngini dəyişməsini gözləməyə sərf edir.
* İnsan çay içməyə daha tez vərdiş edir, nəinki narkotikə.
* Tualet kağızı 1857-ci ildə icad edilib.
* Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.
* Xokkey şaybasının atılma sürəti saatda 160 km. çata bilər.
* Orta statistik hesabla bankomat il ərzində 250 dollar səhv hesablayır - müştərilərinin xeyrinə.
* İl ərzində insan qabırğası 5 milyon dəfə hərəkət edir.
* Dəvədəlləyi yeganə həşəratdır ki, başını çevirə bilir.
* Dünyada baş verən 7 oğurluqdan yalnız birinin üstü açılır.
* Dünyanın heç bir dilində dizin arxa hissəsinin adını verən bir söz yoxdur.

## Yüksək təzyiqin ilginc səbəbi - telefon və media

**Telefonda çox vaxt keçirmək hipertoniyaya tutulma riskini 25 faizə qədər artıra bilər. Elmi araşdırmalar telefon danışıqlarının və sosial medianın qan təzyiqinə mənfi təsir etdiyini sübut edib. Gündə cəmi 45 dəqiqə telefonda vaxt keçirmək və sosial medianı izləmək təzyiq xəstəliyinin əsasını qoya bilir.**

Cənubi Quançjou Tibb Universitetinin professoru Siyanhuey Sinin sözlərinə görə, ürək sağlamlığı üçün insanların telefona danışmağa sərf etdiyi dəqiqələrin sayı vacibdir: dəqiqələr nə qədər çox olarsa, hipertoniya riski də bir o qədər yüksəkdir. Bu isə gələcəkdə ürək xəstəliyi deməkdir. İstər dostunuzla telefonda danışırsınız, istərsə də iş üçün söhbət edirsinizsə, sərf olunan vaxtı minimuma endirmək tövsiyyə olunur.

Araşdırmanın nəticələri göstərib ki, sutkada yarım saatdan çox telefonla danışan insanlar hipertoniyaya 12 faiz daha çox meyllidir. Üstəlik, həftədə altı saat telefon danışığı riski 25 faiz artırıb.

Sosial şəbəkələr və gündəlik zənglərin müddəti 30 dəqiqədən çox olmadıqda, hipertoniya inkişaf riskinə təsir göstərə bilməz.

Yadda saxlamaq lazımdır ki, telefonun yanında yatmaq olmaz. Elektromaqnit şüalanma bioritmlərimizə təsir edir, bu da yuxusuzluğa, kabuslara və tez-tez gecə oyanmasına səbəb olur.

Hipertoniyanın inkişaf riskinin faizi birbaşa həftədə mobil telefonlardan istifadə müddətindən belə asılıdır:

30-50 dəqiqə - 8 faiz

1 saatdan 3 saata qədər - 13 faiz

4 saatdan 6 saata qədər - 16 faiz

6 saatdan çox - 25 faiz

Mobil qurğular demək olar ki, bütün bədənimiz tərəfindən udulan radiotezlik enerjisi yayır. Buna əsasən, təkcə qan təzyiqi deyil, həm də görmə, yaddaş, eşitmə və psixo-emosional rifaha mənfi təsir göstərir.

# Kolumbiyada iki həftə əvvəl qəzaya uğrayan təyyarədə 4 uşaq sağ tapıldı



**Kolumbiyada mayın 1-də göyərtəsindəki 7 nəfərlə birlikdə yoxa çıxan və dünən qalıqları aşkarlanan kiçik təyyarədə 4 uşaq sağ tapılıb. Onların arasında 11 aylıq körpənin də olduğu məlum olub. Bu barədə Kolumbiya Prezidenti Qustavo Petro "Twitter" hesabında açıqlama verib. "Əsgərlərimizin çətin axtarışları nəticəsində Quaviaredə qəzaya uğrayan təyyarədəki 4 uşağı sağ olaraq tapdıq. Bu, ölkə üçün böyük sevincdir", - deyə o qeyd edib.**

Qəzaya uğrayan təyyarədə möcüzə nəticəsində sağ qalan 11 aylıq körpənin olduğu və qardaşların meşədə aşkar edildiyi bildirilib. 13 yaşlı Lesli Bonbaire, 9 yaşlı Soleini Ranoque, 4 yaşlı Tien Ranoque və 11 aylıq körpə Kristian Ranoquenin qəzadan necə sağ qurtulduqları və 17 gün müddətində necə sağ qalmaları ilə bağlı təfərrüat paylaşılmayıb.

Məlumata görə, qardaşlardan ən böyüyü olan Lesli kiçik qardaşlarını yaşatmaq üçün meşədə müvəqqəti sığınacaq qurub. Qeyd edək ki, dünən ölkənin cənubundakı meşələrdə qalıqları tapılan kiçik təyyarədəki digər 4 nəfərin cəsədi aşkarlanıb.

## Havay adalarında köpəkbalığı qayığa hücum etdi



**ABŞ-nin Havay adalarında aqressiv köpəkbalığı yerli balıqçının qayığına hücum edib. Havay sakini əvvəlcə suyun altındakı qara nöqtənin dəniz tısbağası olduğunu düşünüb. Lakin çox keçmədən kişinin "ürəyi yerindən çıxıb". Belə ki, əsl pələng köpəkbalığı qayığa doğru atılıb. Hücum zamanı yırtıcı qayığı aşırmağa çalışsa da, xoşbəxtlikdən tez zamanda bu "ov"un onun "dişlərinə görə olmadığını" anlayıb.**

# "Karib dənizinin quldurları" filmindəki ada satışa çıxarıldı







**"Karib dənizinin quldurları" və "Kasino Royal" filmlərində görünən Baham adasının ekzotik Litl Payp Key adası 100 milyon dollara satışa çıxarılıb. Ada Eksum arxipelaqının 365 adasından biridir.**

Ekzotik ada 16 hektar ərazidə yerləşir, sıx cəngəllikləri və valehedici mavi rəngli kristal təmiz okean suları ilə öyünür. Adada cəmi 11 yataq otağı və 12 vanna otağı olan dörd qonaq evi fəaliyyət göstərir. Onlardan ən böyüyündə hovuz, idman zalı və spa var. Adanın qonaqları həmçinin superyaxtaları qəbul edə bilən vertolyot meydançası və dərin dəniz estakadasından istifadə edə bilərlər.

Bildirilir ki, ada ilkin təbii halını qoruyub, bir çox ekzotik bitki və canlı təbiət nümunələrinə ev sahibliyi edir.

## Bu ölkədə kök polislər işdən çıxarılacaq

**Hindistanın Assam əyalətində kök polislər işdən çıxarılacaq. Bu barədə Assam polis rəisi Gyanendra Pratap Singh yerli mətbuata açıqlamasında deyib. Onun sözlərinə görə, avqust ayından etibarən polisin bədən kütlə indeksinin (BMI) hesablanacaq. Müvafiq olaraq, "obez" kateqoriyasına daxil olan dövlət qulluqçularına noyabr ayına qədər vaxt veriləcək, arıqlaya bilməyənlər isə işdən çıxarılacaq. Müəyyən sağlamlıq problemləri olan polislərin bu təbiqdən azad ediləcəyini ifadə edən Singh, BMI ölçülərini verən ilk şəxs olacağını da ifadə edib.**

## Süni intellekt "seçki keçirəcək"



**Ən böyük narahatlıqlarımdan biri süni intellektin gələn il ABŞ-də seçkilərə təsiretmə potensialıdır". Bu barədə məşhur "ChatGPT" çat-botunu hazırlayan "OpenAI" şirkətinin baş direktoru Sem Altman ABŞ Senatında süni intellektin gələcək seçkilərlə bağlı ictimai rəyi proqnozlaşdırmaq və ona təsir etmək qabiliyyəti ilə bağlı sualı cavablandırarkən etiraf edib.**

O, deyib ki, bu, əhəmiyyətli bir narahatlıq sahəsidir, çünki süni intellekt istifadəçi sorğularına cavab olaraq bir növ interaktiv dezinformasiyanı manipulyasiya etmək, inandırmaq və təmin etməkdə getdikcə daha çox güclənir. Altman bildirib ki, effektiv qaydaların yaradılması üçün bu sahə və qanunvericilər arasında əməkdaşlıq lazımdır. O, texnologiyanın istifadəsinin yanlış istiqamətə gedəcəyi təqdirdə, bunun ciddi nəticələri ola biləcəyini vurğulayıb və belə bir şeyin olmaması üçün hökumətlə işləməyə can atdıqlarını qeyd edib.

## Yağış 9 nəfərin həyatına son qoyub



**İtaliyanın şimalında uzun müddət davam edən intensiv yağışların nəticəsində doqquz nəfər həyatını itirib. İtaliya mətbuatı xilasetmə xidmətlərinə istinadən xəbər verir ki, təbii fəlakət nəticəsində onlarla şəxs itkin düşüb, 28 min insan təxliyə edilib. Mütəxəssislər qeyd ediblər ki, son iki həftədə düşən yağıntının miqdarı 7 aylıq normaya bərabər olub. Daşqınlar 30-dan çox şəhəri əhatə edib.**

## Yeni planet kəşf edildi



**Astronomlar Günəş sistemindən kənarda vulkanik olaraq aktiv olduğu güman edilən Yer ölçüsündə bir planet kəşf ediblər. Bu barədə NASA məlumat yayıb. LP 791-18 d planeti Yerdən təqribən 90 işıq ili uzaqlıqda yerləşir. Mütəxəssislərin fikrincə, bu planet Yerdən yalnız bir qədər böyük və daha ağır kütləlidir. Qeyd olunur ki, kəşf TESS, "Spitzer" teleskoplarının və bir sıra yerüstü rəsədxanaların məlumatlarının təhlili nəticəsində edilib.**

## Bahalı qədim İncil 38,1 milyon dollara satılıb

**İvrit dilində yazılmış qədim İncil Nyu-Yorkda keçirilən hərracda 38,1 milyon dollara satılıb. Məlumat "Sotheby's" ticarət evinin "Twitter" səhifəsində dərc edilib. "Ən qədim və ən tam ivrit dilində İncil ayrıca tarixi hərracda satılıb", - paylaşımda qeyd olunur. Həmçinin qeyd olunur ki, dini kitab təxminən miladın 900-cü ilində tərtib olunub və ivrit dilində İncilin bütün kitablarını özündə cəmləşdirən tək cildin ən qədim nümunəsidir.**

Səhifəni hazırladı: SELCAN

Redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Sifariş: 1269
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.